# YENİ AZƏRBAYCAN

10 sentyabr 2025-ci il, çərşənbə
№ 161 (6988)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Qafqazdan dünyaya yeni strateji yol

## Vaşinqton razılaşmaları: Sabitlik, tərəqqi və əməkdaşlıq ideyası



Bax səh. 2

# Prezident: Beyin mərkəzlərinin araşdırmaları qlobal çağırışların həlli üçün mühüm zəmin yaradır

Bax səh. 2

## Azərbaycan iqtisadiyyatının qlobal təqdimatı



Bax səh. 3

## Milli Məclisin növbədənkənar sessiyasında...

“Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi” mövzusunda xüsusi iclas keçirilib

Bax səh. 4

## Çin və Azərbaycan: inkişaf, tərəqqi yolunun yoldaşları...



Bax səh. 3

# Bakı-Budapeşt əlaqələri etibarlı tərəfdaşlığa əsaslanır

Bax səh. 4

## Türkiyə - Ermənistan münasibətlərinin normallaşmasında yeni mərhələ

Bax səh. 5

## Uçot dərəcəsi sabit qalacaq

“Trading Economics” Azərbaycanla bağlı proqnozlarını açıqlayıb

Bax səh. 5

## Böhran fonunda...

BMT Baş Assambleyasının 80-ci sessiyası işinə başlayıb

Bax səh. 6

## ABŞ və Venesuela arasında gərginlik artır

Bax səh. 6

## Qəzzada atəşkəs elan olunacaq



Bax səh. 7

## Fransada hökumətə etimadsızlıq: lehinə 194, əleyhinə 364 səs



Bax səh. 5



# Prezident: Beyin mərkəzlərinin araşdırmaları qlobal çağırışların həlli üçün mühüm zəmin yaradır

## "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları,**

Sizi Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasında salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İlk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutması məmnunluq doğurur.

Bu il ərzində Çinə həyata keçirilmiş səmərəli dövlət və işgüzar səfərlərim, bir çox sənədlərin, xüsusilə də strateji tərəfdaşlıq barədə iki sənədin imzalanması, qarşılıqlı viza rejiminin ləğvi Azərbaycan ilə Çin arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunələridir.

Müasir dünyada beyin mərkəzlərinin dövlətlərin və cəmiyyətlərin inkişafında rolu olduqca böyükdür. Onların müxtəlif sahələrdə apardığı araşdırmalar qlobal çağırışların - təhlükəsizlik, iqtisadiyyat, texnologiya və ekoloji problemlərin həlli üçün mühüm zəmin yaradır. Bununla da beyin mərkəzləri həm milli, həm də beynəlxalq səviyyədə qərarların daha səmərəli və düzgün qəbuluna öz töhfələrini verirlər. Bu baxımdan AQEM ölkələrinin beyin mərkəzlərinin əməkdaşlığı ölkələr və xalqlar arasında qarşılıqlı anlayışın güclənməsi və regional inteqrasiyanın dərinləşməsi üçün əlverişli perspektivlər açır.

Bu gün Asiya həm iqtisadi potensialı, həm də qlobal proseslərə təsiri baxımından dünyanın güc mərkəzlərindən birinə sürətlə çevrilməkdədir. Buna baxmayaraq, təəssüf ki, qitə ölkələrinin də daxil olduğu Qlobal Cənub əhəmiyyətli qərarların qəbulu prosesində kifayət qədər təmsil olunmur.

2019-2023-cü illərdə Qoşulmama Hərəkatında uğurlu sədrliyi dövründə Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliyə qarşı çıxış etmiş, Hərəkatın beynəlxalq müstəvidə mövqelərinin gücləndirilməsi istiqamətində çalışmışdır. Təqdirəlayiq haldır ki, Qlobal Cənub QHT platformasının təsis konfransı bu il məhz Bakıda baş tutmuşdur. Eyni zamanda COP29-un sədri qismində Qlobal Cənub ölkələrinin iqlim gündəliyi ilə bağlı baxışlarının təşviqi, ən az inkişaf etmiş ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin ehtiyaclarının təmin edilməsi prioritetlərimiz arasında yer almışdır. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş COP29-un uğurlu nəticələri "Bakı sıçrayışı" kimi tarixə düşmüşdür.

Qlobal Cənubun tarixən üzləşdiyi ədalətsizliklərdən biri də Asiya və Afrika xalqlarının taleyində ağrılı izlər buraxmış müstəmləkəçilik siyasəti olmuşdur. Azərbaycan müasir dövrdə müstəmləkəçiliyin utancverici mirasının aradan qaldırılması və neokolonializm təzahürlərinin ifşa olunması sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Biz bu vacib məsələ ilə əlaqədar beynəlxalq həmrəyliyin səfərbər edilməsi yolunda səylərimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik.

Hesab edirik ki, Qlobal Cənub ölkələri yeni ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirak etməli və bu işə öz töhfələrini verməlidirlər. Bu xüsusda, BMT-də müvafiq islahatların aparılması, Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvləri sırasında Qlobal Cənub ölkələrinin təmsil olunmasının təmin edilməsi çox vacibdir. TŞ artıq günümüzün reallıqları ilə uzlaşmayan təsisata çevrilib. Azərbaycan vaxtilə işğal olunmuş torpaqlarının azad edilməsinə çağıran, lakin sadəcə kağız üzərində qalmış TŞ qətnamələrinin icrasını özü təmin etmiş bir ölkə kimi bunu çox gözəl anlayır.

Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır. Keçən ay Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində yerləşən Azərbaycan Avrasiyada ən mühüm nəqliyyat-logistika qovşaqlarından birinə çevrilir. Eyni zamanda, şübhə etmirəm ki, Orta Dəhlizin bir istiqaməti kimi Zəngəzur dəhlizi yaxın gələcəkdə qitələri birləşdirən mühüm nəqliyyat bağlantısı rolunu oynayacaqdır. İnanıram ki, bütün bu kommunikasiya xətləri AQEM üzvləri arasında da əməkdaşlığın inkişafına töhfə verəcək.

**Hörmətli forum iştirakçıları,**

Ölkəmizdə regional və qlobal əhəmiyyətli mötəbər tədbirlərin təşkili artıq ənənə halını alıb. Azərbaycan cari ilin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə Görüşünü təşkil etmiş, oktyabr ayında isə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünə ev sahibliyi etməyə hazırlaşır. Eyni zamanda 2026-cı ildə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının və İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunduğu etibarlı qlobal məkana çevrildiyinin növbəti əyani göstəricisidir.

2026-cı ilin payızında Azərbaycanın sədrliyi altında AQEM Zirvə toplantısının da keçirilməsi planlaşdırılır. Asiya qitəsinin 90%-ni əhatə edən və 28 üzv dövləti bir araya gətirən AQEM regionda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli bir təsisatdır. Azərbaycan AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinə böyük məsuliyyətlə yanaşır. Sədrliyimizin fəaliyyəti "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı artım" mövzusu üzərində qurulur.

Biz sədrliyimiz dövründə AQEM-in təşkilati baxımdan gücləndirilməsi, onun beynəlxalq təşkilat kimi təsisatlanması, yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və təsisatın beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirməsini prioritet olaraq müəyyənləşdirmişik. Eyni zamanda, AQEM çərçivəsində Maliyyə Sammitinin keçirilməsini, Qadınlar Şurasının, Dayanıqlı Bağlantılar Şurasının, AQEM İqlim Şurasının yaradılmasını hədəf götürmüşük.

Əminəm ki, nüfuzlu beyin mərkəzlərinin iştirakı ilə keçirilən hazırkı Forum Azərbaycan sədrliyinin prioritetləri də daxil olmaqla AQEM-in gündəliyində duran qlobal əhəmiyyətli məsələlərin müzakirəsinə dəyərli töhfə verəcəkdir.

Forumun işinə müvəffəqiyyətlər arzulayır, uğurlu nəticələrin əldə edilməsini diləyirəm.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri,***
***8 sentyabr 2025-ci il***

# Qafqazdan dünyaya yeni strateji yol

## Vaşinqton razılaşmaları: Sabitlik, tərəqqi və əməkdaşlıq ideyası

XXI əsrin ikinci onilliyinin başlanğıcından etibarən dünyanın siyasi, eləcə də iqtisadi xəritəsində mühüm korrektələr edilir, yeni strateji konsepsiyalar irəli sürülür. Bu isə özlüyündə yeni güc mərkəzləri formalaşdırır, köhnə stereotiplərin isə öz aktuallığını itirməsinə yol açır. Belə mürəkkəb və ziddiyyətli proseslərin fonunda Cənubi Qafqazda baş verən hadisələr yalnız regional kontestdə izah oluna bilməz - bölgədə baş verən siyasi-iqtisadi, hərbi proseslər həm də qlobal güclərin diqqət mərkəzində dayanır. Çünki Qafqaz Qərblə Şərqi, Şimalla Cənubu birləşdirən, enerji və nəqliyyat yollarının qovuşduğu, siyasi-strateji çəkisi ölçüyəgəlməz dərəcədə böyük olan bir coğrafi məkan kimi çıxış edir.

Azərbaycanın bu coğrafiyada oynadığı rol isə təkcə regionun deyil, bütövlükdə Avrasiyanın gələcəyini müəyyənləşdirən amillərdəndir. Zəngəzur dəhlizi ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri - bütün bunlar Azərbaycanı artıq sadəcə coğrafi körpü kimi səciyyələndirmir, strateji mərkəzə çevirir. Bu ünvandan yüksələn hər bir təşəbbüs, hər bir layihə qlobal iqtisadiyyatın, siyasətin və təhlükəsizliyin istiqamətlənməsinə təsir göstərir.

### Beynəlxalq aləmə mesaj...

Bu nöqteyi - nəzərdən avqustun 8-də Vaşinqtonda keçirilən görüşlər, əldə olunan razılaşmalar, imzalanan sənədlər və dünyaya verilən mesajlar təkcə diplomatik nailiyyət deyil - bu, Avrasiyada yeni iqtisadi mərhələnin başlanğıcıdır. Vaşinqton razılaşmaları:

- Cənubi Qafqazda sabitliyin təmin olunması;
- Regional əməkdaşlığın dayanıqlı əsaslar üzərində qurulması;
- Azərbaycan-ABŞ münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə yüksəlməsi deməkdir.

İmzalanan sənədlər Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında yeni nəqliyyat arteriyasını açır. Zəngəzur dəhlizi (TRİPP) artıq sadəcə bir yol deyil - Avrasiyanı birləşdirəcək, dünya iqtisadiyyatına yeni nəfəs verəcək, qlobal tranzit xəritəsində dönüş yaradacaq layihədir. Bu dəhlizdən keçən hər qatar, hər yük maşını, hər enerji xətti təkcə iqtisadi anlam daşımayacaq, həm də sabitlik, tərəqqi və əməkdaşlıq ideyasını daşıyacaq.



### Mühüm logistik mərkəzə çevrilirik: Bakı - Şərq, Bakı - Qərb istiqamətləri

C.Bayramov ilə ABŞ nümayəndələri arasında keçirilən görüşdə Azərbaycanın qərb bölgələri ilə ölkəmizin Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin əhəmiyyəti diqqətə çatdırılıb, Azərbaycanın son onilliklər ərzində Orta Dəhlizin canlandırılması və işlək vəziyyətə gətirilməsi üçün göstərdiyi səylərdən bəhs olunub, bu səylərin Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi konkret layihələrlə reallaşdırıldığı diqqətə çatdırılıb. Görüşdə həmçinin Orta Dəhliz üzrə Xəzər dənizinin şərqindəki tərəfdaş dövlətlər, dost və qardaş Mərkəzi Asiya ölkələri ilə, həmçinin Azərbaycanın strateji əlaqələrə malik olduğu məmnunluqla xatırlanıb.

Vurğulandığı kimi, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin Vaşinqton razılaşmalarında xüsusi yer alması diqqətçəkicidir. Zəngəzur dəhlizi (TRİPP) seqmentinin beynəlxalq dəstəklə təsdiqlənməsi ölkəmizin daxili logistik imkanlarının yüksək dəyərləndirilməsi olmaqla yanaşı, həm də dünyaya yeni bir strateji tranzit alternativi təqdim edir. Bu, iqtisadi, siyasi və təhlükəsizlik baxımından regionun inkişafına xidmət edəcək mühüm nailiyyətdir.

Orta Dəhlizin canlandırılmasında Azərbaycanın roluna gəldikdə isə, bu rol olduqca əhəmiyyətli və yüksəkdir. Ölkəmiz son onilliklər ərzində Şərqdən Qərbə uzanan ən mühüm tranzit yollarından biri olan Orta Dəhlizin canlandırılması və işlək vəziyyətə gətirilməsi istiqamətində böyük səylər göstərib. Yerləşdiyimiz əlverişli coğrafi mövqe bu dəhlizin təbii mərkəzinə çevrilməsinə şərait yaradıb. Görüşdə vurğulanan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi layihələr Azərbaycanın nəqliyyat və logistika sahəsində həyata keçirdiyi böyük addımların bariz nümunələridir. Bu layihələr vasitəsilə Azərbaycan yalnız Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında mühüm logistik qovşağa çevrilib.

Orta Dəhlizin inkişafı təkcə nəqliyyat imkanlarının artırılması demək deyil. Bu, həm də iqtisadi əməkdaşlıq, investisiya, regional inteqrasiya və siyasi dialoqun genişlənməsi anlamına gəlir. Azərbaycanın təşəbbüsləri nəticəsində Orta Dəhliz Xəzər dənizinin şərq sahilində yerləşən tərəfdaş dövlətlər və dost-qardaş Mərkəzi Asiya ölkələri ilə sıx əlaqələr üzərində qurulub. Bu əməkdaşlıq müstəvisində Şərq-Qərb kontentinin yaradılması, yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması və regional sabitliyin möhkəmləndirilməsi prosesləri sürətlə irəliləyir.

Qeyd edilən məqamlar sentyabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ölkəmizdə səfərdə olan ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri arasında baş tutan görüşün də əsas müzakirə predmetləri olub. Belə ki, görüş zamanı cari il avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın Baş nazirinin iştirakı ilə aparılmış müzakirələrin və imzalanmış sənədlərin tarixi əhəmiyyəti qeyd olunub, bu razılaşmaların regional sülhə və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb.

### Azərbaycan-ABŞ tərəfdaşlığı yeni mərhələdə

Həqiqətən də 2025-ci ilin 8 avqustunda Vaşinqtonda keçirilmiş yüksək səviyyəli görüş regionun və bütövlükdə dünyanın siyasi gündəliyində tarixi hadisə kimi qiymətləndirilməlidir. ABŞ Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında aparılmış müzakirələr, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar yalnız Cənubi Qafqazda yeni reallıqların təsbit olunmasına xidmət etmir, eyni zamanda, qlobal təhlükəsizlik, inteqrasiya və tərəqqi üçün də mühüm nəticələr vəd edir. Ən əsası, bu sənədlər Azərbaycanın strateji mövqelərinin gücləndirilməsinə, Azərbaycan-ABŞ tərəfdaşlığının yeni mərhələyə yüksəlməsinə və regional əməkdaşlığın daha dayanıqlı əsaslarda qurulmasına təkan verir.

Münasibətlərin normallaşması Cənubi Qafqaz regionu üçün həm geostrateji, həm geoiqtisadi, həm də geosiyasi mənada yeni üfüqlər açır. Bu isə qlobal səviyyədə vacib nəticələr vəd edir. Nəzərə alsaq ki, artıq bir neçə aydır dünyada yeni siyasi nizamın formalaşdırılması istiqamətində aktiv prosesləri müşahidə edirik, Cənubi Qafqazda əbədi sülhün yaranması qütblərarası iqtisadi münasibətlərdə yeni bir cığır aça bilər. Şərq-Qərb kontenti üzrə ticari münasibətlərin ən vacib geocoğrafi nöqtəsi sayılan Cənubi Qafqazın sabit və inkişafa yönəlik üstünlükləri göz önünə çıxaraq yeni dividendlər yaradacaq. Ümumiyyətlə, son dövrlərdə Azərbaycanın apardığı effektiv siyasi xətt bütün dünyada yüksək dəyərləndirilir. Bu sferada ABŞ-Azərbaycan münasibətləri diqqət çəkir - yeni bir trayektoriya qazanan ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir. Rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə, irəliyə daşımaqda maraqlı olduğunu sübut edir.



### Enerji təhlükəsizliyi müstəvisində artan rolumuz təsdiqlənir...

Görüş zamanı Azərbaycanın uzun illər boyu Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynadığı bildirilib, hazırda ölkəmizin təbii qazı ilə təchiz olunan ölkələrin sayının 14-ə çatdığı qeyd olunub.

Azərbaycanın hazırda nəhəng bərpaolunan enerji resurslarının inkişafı və Avropaya ötürülməsi üzrə tərəfdaş ölkələrlə genişmiqyaslı fəaliyyətlər həyata keçirdiyi qeyd olunub, bu məqsədlə Qara Dəniz Enerji sualtı kabelinin inşası kimi konkret layihələrin əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd edildiyi kimi, Azərbaycan uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyində əsas oyunçulardan biridir. Son illərdə ölkəmizin təbii qazı ilə təmin olunan ölkələrin sayı 14-ə çatıb və onların böyük əksəriyyəti Avropa dövlətləridir. Cənub Qaz Dəhlizi layihəsi, TANAP və TAP kəmərləri Azərbaycanı Avropanın enerji bazarında etibarlı tərəfdaş kimi möhkəmləndirib. Azərbaycanın enerji resurslarının sabit və davamlı şəkildə çatdırılması Avropa dövlətləri üçün strateji əhəmiyyət kəsb edir.

Bütün müstəvilərdə müasir çağırışlara məhz müasir standartlar əsasında qarşılıq verən Azərbaycan təkcə ənənəvi enerji resursları ilə kifayətlənmir, həm də bərpaolunan enerji potensialını qlobal enerji gündəliyinə təqdim edir. Xüsusilə son illərdə yaşıl gündəlik çərçivəsində atılan addımlar Azərbaycanın yeni strateji üstünlüyünü formalaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji resurslarının inkişafı və Avropaya ötürülməsi üzrə tərəfdaş ölkələrlə həyata keçirdiyi fəaliyyətlər beynəlxalq səviyyədə xüsusi maraq doğurur. Qarabağ və Şərqi Zəngəzurda, həmçinin Xəzər dənizi sahillərində külək və günəş enerjisi layihələrinin reallaşdırılması Azərbaycanın enerji potensialını daha da artırır. Qara Dəniz Enerji sualtı kabelinin inşası isə ölkəmizin yaşıl enerjisini Avropaya ötürmək üçün strateji infrastruktur kimi mühüm rol oynayacaq. Bu layihə Avropa ilə Azərbaycan arasında enerji əməkdaşlığının yeni səhifəsini açır, eyni zamanda, qlobal enerji keçidində Azərbaycanın aparıcı rolunu təsdiqləyir.

### Regiona sabitlik, dünyaya isə yeni əməkdaşlıq imkanları təqdim olunur

Bəli, Vaşinqton görüşündə əldə olunmuş razılaşmalar Azərbaycanın bütün bu strateji səylərinin beynəlxalq miqyasda təsdiqlənməsi və dəstəklənməsi baxımından xüsusi önəm daşıyır. ABŞ kimi qlobal gücün bu proseslərdə aktiv iştirak etməsi, regionda sabitlik və inkişaf naminə konkret öhdəliklər götürməsi Bakının strateji mövqelərinin daha da güclənməsinə yol açır, eləcə də regionaşl lider statusunu bir daha təsdiqləyir.

Zəngəzur dəhlizi (TRİPP) seqmentinin beynəlxalq sənədlərlə təsdiqlənməsi isə Azərbaycanın yalnız regional deyil, həm də qlobal tranzit şəbəkəsində mühüm rolunu bir daha ortaya qoyur. Bu dəhliz həm Şərqdən Qərbə, həm də Şimaldan Cənuba hərəkət edən yüklərin daha qısa, təhlükəsiz və səmərəli daşınmasına imkan verəcək.

Vaşinqton razılaşmaları həm də Cənubi Qafqazda davamlı sülhün və tərəqqinin bərqərar olması üçün yeni imkanlar açır. Ermənistanın bu prosesdə iştirak etməsi, razılaşmalara imza atması gələcəyə baxışın formalaşması, sülhün əldə olunması baxımından mühüm addımdır. Azərbaycanın prinsipial mövqeyi - regionda sülh, əməkdaşlıq və inkişaf naminə addımları ABŞ kimi strateji tərəfdaş tərəfindən dəstəklənməklə reallığa çevrilir. Bu isə ölkəmizi Avrasiyanın mühüm strateji mərkəzlərindən birinə çevirir. Vaşinqton razılaşmaları bu mövqeyi daha da möhkəmləndirir, regiona sabitlik, dünyaya isə yeni əməkdaşlıq imkanları bəxş edir.

***Pərviz SADAYOĞLU***

# Çin və Azərbaycan: inkişaf, tərəqqi yolunun yoldaşları...

## Pekin-Bakı münasibətləri qlobal mahiyyət və əhəmiyyət daşıyır

Dünya siyasətinin mürəkkəb və sürətlə dəyişən mənzərəsində Azərbaycan-Çin münasibətləri xüsusi strateji çalarları ilə seçilir. Özündə Qədim İpək yolunun ruhunu yaşadan, müasir nizamın konturlarını əks etdirən bu tərəfdaşlıq tək tarixi yaddaşın davamı kimi deyil, eyni zamanda müasir geosiyasi reallıqların əməkdaşlıq nümunəsinə çevrilib. Son illərdə qarşılıqlı münasibətlərin intensiv xarakter alması, siyasi iradənin iqtisadi, humanitar və texnoloji sahələrdə real nəticələrə çevrilməsi Azərbaycan-Çin əlaqələrinin çoxşaxəli və dayanıqlı inkişaf yolunda olduğunu göstərir.

Xüsusilə ötən ilin iyulunda və bu ilin aprelində imzalanmış strateji əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə bağlı bəyanatlar ikitərəfli münasibətlərə yeni nəfəs, yeni şəkil qazandırıb. İmzalanan sənədlər, müzakirə edilən məsələlər, o cümlədən, proqnozlaşdırılan geniş əməkdaşlıq sferası mühüm bir regionda gələcək onilliklərin iqtisadi xəritəsini müəyyənləşdirir. Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının son zirvə toplantısı çərçivəsində Çinə səfəri, orada keçirilən yüksək səviyyəli görüşlər bu tərəfdaşlığın dinamik xarakterini və strateji miqyasını növbəti dəfə təsdiqlədi - bütün dünya Azərbaycan və Çin arasında formalaşan münasibətlərin regional deyil, qlobal əhəmiyyət kəsb etdiyini əyani şəkildə müşahidə etmiş oldu. Çünki bu əlaqələr enerji və nəqliyyat dəhlizlərinin kəsişməsində yeni əməkdaşlıq formatlarını yaradır, Avrasiya məkanında sabitlik və tərəqqiyə ciddi töhfələr verir. Bu gün Bakı ilə Pekin arasındakı dostluq və əməkdaşlıq xətti, siyasi dialoq gələcəyin böyük layihələrinin, qlobal iqtisadi inteqrasiyanın mühüm dayaqlarından birinə çevrilməkdədir.



### Qlobal Cənubun uğurlu təmsilçiləri...

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Lu Mey Prezident İlham Əliyevin Çinə son səfərinin yekunlarına həsr olunmuş brifinqdə bildirib ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülən təşəbbüs (Qlobal İdarəetmə Təşəbbüsü - red.) müasir dünyanın ümumbəşəri istəklərinə və təxirəsalınmaz ehtiyaclarına cavab verir. O, irəli sürüldükdən dərhal sonra müxtəlif ölkələrin liderləri və beynəlxalq təşkilatların rəhbərləri tərəfindən bəyənilib və dəstəklənib.

Prezident İlham Əliyev "ŞƏT plyus" formatında görüşdəki çıxışında da bildirdi ki, Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir. Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayır. Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdəndir və bu istiqamətdə ciddi praktiki layihələr reallaşdırırıq. Beləliklə, Azərbaycan ilə Çin arasında əlaqələrin çoxşaxəliyi bütün sferalarda ortaya qoyulur.

Səfir deyib ki, hər iki dövlət - Çin və Azərbaycan - Qlobal Cənub ölkələridir və qlobal idarəetmədə islahatların aparılması və onun təkmilləşdirilməsinin əsas qüvvəsidir. Günümüzün ən mühüm çağırışları məhz əməkdaşlığa və ortaq dəyərlərin bölüşülməsinə hədəflənir - çoxtərəfli platformalarda sıx əməkdaşlıq üçün yaradılan zəmin bəşəriyyətin ümumi problemlərinin həllində açar rolunu oynayır. Qlobal nizamın əsas dayaq nöqtələri isə müasir transformasiyaya uyğun olaraq tənzimlənir - etiraf olunur ki, qlobal problemlərin həllində, beynəlxalq iqtisadi-siyasi əlaqələrin qurulmasında, hətta ən kəskin kataklizmlərin və toqquşmaların qarşısının alınmasında Qlobal Cənubun rolu artır. Bu gün etiraf edilir ki, beynəlxalq ədalətin səmərəli şəkildə müdafiəsində aparıcı funksiyanı məhz Qlobal Cənub üstlənib. Azərbaycan və Çin isə bu mühüm tabloda özünəməxsus, olduqca vacib, ən əsası isə strateji tərəfdaşlığa söykənən bir konsepsiya nümayiş etdirir.

### Çinin BÖYÜK DOSTU...

Səfir bildirib ki, Azərbaycan Prezidenti Çinə 8 dəfə səfər edib, ÇXR Sədri Si Cinpin ilə müxtəlif formatlarda 10-dan çox görüş keçirib. İki ölkənin liderləri arasında yaxşı işgüzar əlaqələr qurulub, dərin şəxsi dostluq möhkəmlənib. ÇXR Sədri Si Cinpin Prezident İlham Əliyevi "köhnə dostum" adlandırıb. Məhz iki dövlət başçısının strateji rəhbərliyi altında Çin-Azərbaycan əlaqələri daim inkişaf edir və artıq tarixinin ən yüksək səviyyəsinə çatıb.

Həqiqətən də, iki ölkə arasında son illərdə siyasi dialoqun, iqtisadi tərəfdaşlığın genişlənməsində, dövlətlərarası münasibətlərin inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Beləliklə, dinamik və işgüzar xarakter daşıyan bu əlaqələr yeni mərhələdə yeni müstəviyə qədəm qoyur. Eyni zamanda, dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Son səfər zamanı baş tutan görüşdə də Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Xalq Respublikasının Sədri Si Cinpin dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirib.

Səfir qeyd edib ki, Si Cinpin Çini və Azərbaycanı inkişaf və tərəqqi yolunda yoldaş adlandırıb və Pekinin Çin-Azərbaycan əməkdaşlığının yaxşı dinamikasını qorumaq, qarşılıqlı fayda və birgə inkişaf naminə yeni üfüqlər açmaq naminə Azərbaycanla bundan sonra da işləməyə hazır olduğunu bildirib. Dövlət başçılarının görüşü Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlığının növbəti mərhələsinin istiqamətlərini müəyyən edib, həmçinin iki ölkə arasında hərtərəfli əməkdaşlığın dərinləşməsinə yeni təkan verib.




### Vahid Çin prinsipi hər zaman dəstəklənir...

Lu Mey vurğulayıb ki, Azərbaycan tərəfi vahid Çin prinsipinə qətiyyətlə yanaşır və "Tayvanın müstəqilliyinə" qarşıdır. Prezident İlham Əliyev "ŞƏT plyus" iclasında bildirib ki, Azərbaycan Çinin Qlobal İnkişaf, Qlobal Təhlükəsizlik və Qlobal Sivilizasiya üzrə təşəbbüslərini fəal şəkildə dəstəkləyir və Sədr Si Cinpinin təklif etdiyi Qlobal İdarəetmə Təşəbbüsünü alqışlayır.

Bu nüans xüsusilə ön planda yer alır - hər iki ölkə ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət çərçivəsində əməkdaşlığı yüksək səviyyədə qurur. Azərbaycan tərəfi "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir - "Tayvan problemi" uzun illərdir ki, davam edir və məsələ ilə bağlı Azərbaycanın mövqeyi birmənalıdır. Azərbaycan hər zaman "vahid Çin" siyasətini dəstəkləyib.

Diplomat bildirib ki, Çin və Azərbaycanın praqmatik əməkdaşlıq üçün böyük perspektivləri və potensialı var. Sözügedən səfər zamanı iki ölkə liderləri praqmatik əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar. Sədr Si Cinpin qeyd edib ki, milli inkişaf strategiyalarının uyğunlaşdırılmasını intensivləşdirmək, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yüksək keyfiyyətli əməkdaşlığı inkişaf etdirmək, ticarət və investisiyanın liberallaşdırılmasına və asanlaşdırılmasına kömək etmək, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarını davamlı olaraq artırmaq, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı sektorlarında inkişafı təmin etmək, rəqəmsal iqtisadiyyat və süni intellekt kimi ənənəvi sahələrdə əməkdaşlığı genişləndirmək vacibdir.

### Hərtərəfli strateji tərəfdaşlığın geniş perspektivləri...

İki ölkə arasındakı dostluq münasibətləri tarixən mövcud olsa da, son illərdə bu tərəfdaşlıq daha dinamik məzmun qazanıb. Azərbaycanın geostrateji mövqeyi və zəngin enerji resursları, Çinin isə qlobal iqtisadi gücü və texnoloji imkanları ikitərəfli münasibətləri xüsusi strateji çərçivəyə daşıyır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində mühüm tranzit mərkəzinə çevrilməsi Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə üst-üstə düşür. Bu, iki ölkə arasında logistika və ticarət sahəsində geniş əməkdaşlıq perspektivləri açır. Eyni zamanda, Azərbaycanın enerji resursları Çinin artan ehtiyacları fonunda qarşılıqlı faydalı əməkdaşlıq imkanlarını genişləndirir. Mədəniyyət və humanitar sahələrdə də əlaqələr güclənir. Tələbə mübadiləsi, birgə elmi layihələr, mədəni tədbirlər xalqlarımız arasında dostluğun dərinləşməsinə xidmət edir. Bu isə iqtisadi əməkdaşlığa əlavə stimul verir. Beləliklə, Azərbaycan və Çin münasibətləri praqmatik məzmunu, qarşılıqlı maraqları və böyük potensialı ilə seçilir. Bu əməkdaşlıq təkcə ikitərəfli səviyyədə deyil, həm də qlobal miqyasda sabitlik, inkişaf və inteqrasiyaya xidmət edən mühüm amildir.

Səfir qeyd edib ki, Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlığının geniş perspektivləri və bu sahədə böyük ümidlər var. Çin tərəfi strateji istiqamət kimi dövlət başçılarının diplomatiyasını, həmçinin ən yüksək səviyyədə imzalanmış mühüm razılaşmaları rəhbər tutaraq Azərbaycan tərəfi ilə birgə işləməyə və ikitərəfli münasibətlərin daha da inkişafına təkan vermək məqsədilə müvafiq işlərin uğurla başa çatdırılması üçün bütün səylərini əsirgəməməyə hazırdır.

***Pərviz SADAYOĞLU***

# Azərbaycan iqtisadiyyatının qlobal təqdimatı

## Çində təşkil edilən "CIFIT 2025" sərgisində ölkəmizin investisiya və biznes potensialı təşviq edilib

Çinin Fucien əyalətinin Siamen şəhərində keçiriləm 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi ("CIFIT 2025") Azərbaycan üçün əlamətdar olub. Çinin Kommersiya Nazirliyinin və Fucien əyalət hökumətinin ev sahibliyi ilə keçirilən sərgi ölkəmizin investisiya imkanlarının təqdimatı və çoxtərəfli əməkdaşlığının təşviqi baxımından vacib beynəlxalq platforma rolunu oynayıb. İqtisadiyyat Nazirliyinin və Azərbaycanın Çindəki ticarət nümayəndəsi Aparatı və İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) tərəfindən təşkil olunan "Invest in Azerbaijan" vahid ölkə stendində ölkəmizin makroiqtisadi göstəriciləri, biznes mühiti, investisiya imkanları nümayiş olunub. Stendi ziyarət edən iştirakçılara və biznes icmasına ölkəmizdə biznes mühiti barədə ətraflı məlumat verilib. Stenddə Ələt Azad İqtisadi Zonasında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında investorlara təklif olunan imtiyazlar, ölkəmizin nəqliyyat-tranzit potensialı, turizm perspektivləri təqdim olunur ki, bu da Azərbaycanın regional logistika və nəqliyyat qovşağının mərkəzi kimi strateji potensialı barədə dərin təsəvvürlər yaradır. "Invest in Azerbaijan" ekspozisiya bölməsində ziyarətçilərə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Dövlət Neft Fondunun (DNF) fəaliyyət istiqamətləri barədə məlumatlar, vizual və çap materialları da təqdim olunur. Bununla yanaşı, stenddə "Made in Azerbaijan" məhsullarının nümayiş etdirildiyi "Azərbaycan Ticarət Ev"ləri guşəsi maraqla qarşılanıb.




**Çin-Azərbaycan İkitərəfli İnvestisiya Təşviqi**

Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin sərgi çərçivəsində keçirdiyi görüşlər faydalı müzakirələrlə və mühüm anlaşmalarla yadda qalıb. Bildirilib ki, investisiya qanunvericiliyi təkmilləşdirilir və xarici investorlara münasibət müsbət istiqamətdə dəyişir. Bu amillər dünyanın bir çox şirkətləri kimi, Çin şirkətləri üçün də Azərbaycanın investisiya bazarını cəlbedici edir. Çin şirkətləri Azərbaycanın əlverişli coğrafi mövqeyi, sabit iqtisadi mühiti və geniş potensialı sayəsində ölkəmizə böyük maraq göstərir. Energetika, nəqliyyat, tikinti və informasiya texnologiyaları kimi sahələrdə Çin investisiyaları Azərbaycan iqtisadiyyatının diversifikasiyası və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verir.

Beynəlxalq sərgi çərçivəsində Çin-Azərbaycan İkitərəfli İnvestisiya Təşviqi tədbirinin keçirilməsi isə iki dövlət arasında strateji tərəfdaşlığın və yaxın dostluğun nümunəsi hesab edilə bilər. AZPROMO və Azərbaycanın Çindəki ticarət nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, sənaye, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, İKT və digər sahələrdə fəaliyyət göstərən 100-dək iş adamı qatılıb. Tədbirdə çıxış edən Şahin Mustafayev bildirib ki, iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub və ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması ticarət və investisiya əməkdaşlığına güclü təkan verib. Azərbaycan Cənubi Qafqaz regionunda Çinin etibarlı tərəfdaşıdır. Bu ilin yanvar-iyul aylarında Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi 2,5 milyard dollara çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 26 faiz çoxdur.

**Orta Dəhliz nəhəng əməkdaşlıq habı formalaşdırır**

Son dövrlər investisiya tərəfdaşlığının dərinləşdirilməsi istiqamətində göstərilən ikitərəfli səylər nəticəsində Çin şirkətləri ilə sənaye, yaşıl enerji, nəqliyyat, rəqəmsal iqtisadiyyat, yüksək texnologiyalar və başqa sahələrdə birgə layihələr həyata keçirilir, yaradılmış infrastruktur Çin və Azərbaycan arasında ticarət, sərmayə əlaqələrinin daha da genişlənməsi üçün əlverişli imkanlar açır. Çin sənaye istehsalı, bərpaolunan enerji, kənd təsərrüfatı və İKT sahələrində birgə təşəbbüslərdə fəallığını artırır. Nəqliyyat-logistika sahəsində əlaqələrdə dinamizm ən yüksək səviyyəyə çatıb və bu müsbət tendensiyanın davamlılığı ölkələrimizin "Bir kəmər, bir yol" təşəbbüsündə fəal və birgə iştirakını təmin etməkdədir. 2025-ci ilin 7 ayı ərzində Çindən 225 blok qatar qəbul olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 2 dəfə çoxdur. İlin sonuna qədər isə 400-dən çox blok qatarının qəbul ediləcəyi gözlənilir. Həmçinin, cari ilin əvvəlindən Pekin və Çinin Şanşi, Quanqdun və Çjetszyan vilayətlərindən Azərbaycan üzərindən tranzit şəkildə Avropaya Orta Dəhliz üzərindən Çin-Avropa qatarları uğurla göndərilib.

Çin regional əlaqələrin genişləndirilməsində, regional iqtisadi inkişafın təşviqində və qlobal istehsal, təchizat zəncirinin sabitliyinin təmin edilməsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz ) roluna böyük əhəmiyyət verir. Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə edilən razılaşma Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqənin yaradılmasına və Zəngəzur dəhlizinin Orta Dəhlizin və Şimal-Cənub dəhlizinin əhəmiyyətli seqmentinə çevrilməsi sayəsində regionda nəhəng əməkdaşlıq habının formalaşmasına səbəb olacaq.

**Suveren investisiya fondları arasında əməkdaşlıq**

Çinin kommersiya nazirinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Lin Cinin sözlərinə görə, Çin şirkətlərinin Azərbaycanla ticarət, logistika sahəsində birgə əməkdaşlığı region ölkələri üçün nümunədir. Həmsədr tərəflərin sənaye və "yaşıl enerji" sahələrində sıx əməkdaşlıq etdiyini xatırladıb. Mingəçevirdə Azərbaycanın ən böyük elektrik stansiyası olan "8 Noyabr"ın təchizatında iştirak edən Çin şirkətləri hazırda 240 MVt gücündə Xızı-Abşeron Külək Elektrik Stansiyasının tikintisi layihəsini uğurla həyata keçirir. Yaxın vaxtlarda isə 100 MVt gücündə "Qobustan" Günəş Elektrik Stansiyasının tikintisinə start veriləcək. Bu, Azərbaycanda hərrac nəticəsində həyata keçirilən və Çinin sərmayə qoyduğu ilk bərpaolunan enerji layihəsi hesab edilir. İki tərəfin səyləri nəticəsində yaxın gələcəkdə Azərbaycanda elektrik avtobuslarının istehsalı müəssisəsi işə salınacaq. Çin şirkətlərinin azad edilmiş bölgələrdə günəş və külək enerjisi potensialının üzə çıxarılması və tədarükündə, eyni zamanda, qabaqcıl və ağıllı texnologiyaların tətbiqində də iştirakı birgə investisiya platformasının uğurlarından hesab edilir. Tədbir çərçivəsində keçirilən panel sessiyada Azərbaycan İnvestisiya Holdinqi, İqtisadi Zonaların İnkişafı Agentliyi, Çinin Horqos İqtisadi İnkişaf Zonası və hər iki ölkənin sənaye və İKT kimi sahələrində fəaliyyət göstərən şirkət nümayəndələri ikitərəfli işgüzar təmasların gücləndirilməsinə dair fikirlərini bölüşüb, təkliflərini irəli sürüblər.



Tədbir çərçivəsində Dövlət Neft Fondu il "China Energy İnternational" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu iki ölkənin suveren investisiya fondları arasında institusional əməkdaşlığın inkişafı baxımından mühüm mərhələ olub. Bu sənəd, bilik və təcrübə mübadiləsi, ortaq dəyərlərə əsaslanan dayanıqlı sərmayə modellərinin qurulması və qarşılıqlı faydalı investisiya təşəbbüslərinin təşviqi üçün strateji çərçivə formalaşdırmaqla Çin-Azərbaycan tərəfdaşlığının möhkəmləndirilməsinə töhfə verəcək.

Beləliklə, sentyabrın 11-dək davam edəcək nüfuzlu "CIFIT 2025" sərgisi Azərbaycanın investisiya və ticarət imkanlarını tanıtmaq, Çin bazarında mövqelərimizi gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün yeni fürsətlər yaradır. Azərbaycan məhsullarının daha geniş təqdimatına və ixrac imkanlarının genişləndirilməsinə xidmət edir.

***E.CƏFƏRLİ***

# Milli Məclisin növbədənkənar sessiyasında...

## “Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi” mövzusunda xüsusi iclas keçirilib




**Sentyabrın 9-da Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində “Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi” mövzusunda xüsusi iclas keçirilib. İclasda çıxış edən spiker Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri tarixi əhəmiyyət daşıyır. Belə ki, Vaşinqton razılaşmaları yalnız Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, Azərbaycan-Ermənistan sülh gündəliyi baxımından mühüm məqamları ilə deyil, həm də Cənubi Qafqazda və daha geniş regionda proseslərə ciddi şəkildə təsir göstərən tərəfləri ilə yadda qaldı. Onun sözlərinə görə, bu hadisənin “Konstitusiya və Suverenlik İli” çərçivəsində baş verməsi isə rəmzi məna daşıyır: “Vaşinqton razılaşmaları Prezidentimizin Vətən müharibəsindən sonra qətiyyətlə reallaşdırdığı sülh diplomatiyasının məntiqi sonluğa çatması baxımından da əlamətdar bir hadisə oldu. Dövlət başçısı əzəli torpaqlarımızın 30 illik işğalına son qoyulmasına, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail oldu. O, həm də məlum prinsiplər əsasında sülh gündəliyini müəyyən edərək, bu gündəliyin həyata keçirilməsini təmin etdi. Ölkəmizə qarşı müxtəlif iftira və təzyiqlərlə sülh danışıqlarına müdaxilə etmək, öz məkrli planlarını icra etmək istəyənlərin siyasi-diplomatik təxribatları isə böyük məharətlə dəf edildi. Bizlər bütün bu proseslərin canlı şahidiyik”.**

### Sahibə Qafarova: Bu uğurlar Prezident İlham Əliyevin sülh diplomatiyasının təntənəsidir

S.Qafarova deyib ki, Vaşinqton razılaşmalarının nəticəsi olaraq, Prezident İlham Əliyevin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsünün reallığa çevrilməsi də tarixi əhəmiyyət daşıyır: “Bu dəhliz yalnız Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etmir, o həm də Avrasiyanın nəqliyyat xəritəsini dəyişir və daha geniş bir regionda işbirliyi üçün yeni imkanlar yaradır. Heç şübhəsiz, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi layihələr Avrasiyanın enerji xəritəsini dəyişdiyi kimi, Zəngəzur dəhlizi də Avrasiyanın nəqliyyat xəritəsinə önəmli yeniliklər gətirəcək. Birləşmiş Ştatların bu məsələdə dəstəyi bəzi ölkələrin Azərbaycana qarşı əsassız hücumlarının və qarayaxma kampaniyasının üzərindən də xətt çəkdi”. Spiker qeyd edib ki, Azərbaycanın və Cənubi Qafqazın taleyində dönüş nöqtəsi olan, daha geniş regionda proseslərə istiqamət verən Vaşinqton razılaşmaları uzaqgörən siyasətin çətinlikləri qələbələrə çevirməyə qadir olduğunu parlaq surətdə təsdiq edir. Bu gün xalqımızın arzu və istəkləri reallığa çevrilir, regionumuzda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradılır. Bütün bunlar isə Prezident İlham Əliyevin sülh diplomatiyasının və müdrik liderliyinin təntənəsidir.

### Zəngəzur dəhlizinə mane olmağa çalışanlar geri çəkilməyə məhkumdur

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Azərbaycanın tarixi zəfəri diplomatiyada yeni mərhələyə yol açıb və bu prosesin davamı məhz Vaşinqtonda əldə edilən razılaşmalardır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin sülh diplomatiyası nəticəsində Ermənistanla düşmənçilik səhifəsi bağlanıb və indi qarşıda xalqlar arasında barış mühitinin yaradılması dayanır. Bu istiqamətdə ən mühüm təşəbbüslərdən biri yaxın gələcəkdə birgə parlament komissiyasının yaradılması olacaq. “Etimad mühitini möhkəmləndirmək, xalqları barışa hazırlamaq və sülh müqaviləsinin uzunmüddətli nəticələrini təmin etmək üçün parlamentlər səviyyəsində əməkdaşlıq yeni mərhələ açacaq. Birgə parlament komissiyasının yaradılması isə dövlətlərarası münasibətlərin davamlılığını təmin edəcək”, - deyə Zahid Oruc qeyd edib.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov çıxışında bildirib ki, Azərbaycanın xarici siyasəti və Prezident İlham Əliyevin liderliyi yalnız ölkənin daxilində yeni reallıqlar yaratmaqla kifayətlənmir, eyni zamanda, regionun yeni tarixini formalaşdırmaq kimi mühüm bir missiyanı öz üzərinə götürür. Vaşinqtonda aparılan danışıqlar və əldə olunan razılaşma təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji əhəmiyyətə malikdir və yeni mərhələnin başlanğıcını qoyur.

Birinci vitse-spiker Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən Zəngəzur dəhlizi layihəsinin regional əməkdaşlıq üçün böyük imkanlar açdığını diqqətə çatdırıb və əlavə edib ki, bu layihəyə mane olmağa çalışan qüvvələr artıq bu niyyətlərindən geri çəkilməyə məhkumdur. Ə.Əhmədov Zəngəzur dəhlizinin reallaşmasının yalnız Azərbaycan üçün yox, region ölkələri üçün də yeni və parlaq bir səhifə olacağını vurğulayıb.

### Əli Hüseynli: Məqsəd gələcək nəsillərin ədalətli və əbədi sülh şəraitində yaşamasını təmin etməkdir

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, 8 avqust Vaşinqton razılaşması müasir Azərbaycan diplomatiyasının ən tarixi nailiyyətlərindən biridir və Azərbaycan-Ermənistan arasında sülhü reallaşdıran hadisədir. Onun sözlərinə görə, Azərbaycan və Ermənistanın münasibətləri müəyyən dövrləri istisna etməklə uzun müddət münaqişə və ardıcıl konfliktlərlə yadda qalmışdı. Çünki, daim bu münaqişədə xarici qüvvələr də maraqlı olublar. Komitə sədri deyib ki, indi Vaşinqtonda baş tutan razılaşma coğrafi məsafə baxımından çox uzaq olsa da, əslində sülhü bizə daha yaxın etdi. Reallıq budur ki, hər iki ölkənin arzuladığı tərəfsiz və ədalətli vasitəçi rolunu ABŞ və onun Prezidenti Donald Tramp həyata keçirə bildi. Azərbaycanın və Ermənistanın bu sənədi Ağ Evdə ABŞ Prezidentinin şahidliyi ilə paraflaması münaqişənin sonu demək oldu. Bu, bir tək Cənubi Qafqaz regionu üçün deyil, bütün region üçün tamamilə yeni imkanlar açır. Yeni nəqliyyat və enerji yollarının açılması regionun inkişafına güclü təkan verəcək. Ə.Hüseynlinin fikrincə, Prezident İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi və dəmir yumruğu ilə yanaşı, alicənab və humanist xarakteri də bu tarixi uğurun əsas səbəbidir: “Əminəm ki, yaxın gələcəkdə Azərbaycan parlamentində Konstitusiyaya uyğun olaraq sülh bağlanmasına razılıq verilməsi iclasının da şahidi olacağıq. Məqsədimiz gələcək nəsillərin sabit, ədalətli və əbədi sülh şəraitində yaşamasını təmin etməkdir”.

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxışında Azərbaycanın uğurlu diplomatiyasından və Prezident İlham Əliyevin qətiyyətli siyasətindən bəhs edib. Onun sözlərinə görə, “Qarabağın fatehi” adlandırılan İlham Əliyev həm də, sülh uğrunda savaşın qalibi oldu.

### Azərbaycan yeni dünya düzəninin formalaşmasında mühüm rol oynayır

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov da Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfərinin Azərbaycan-ABŞ münasibətləri baxımından mühüm tarixi əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, Vaşinqton razılaşması Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Həmçinin illər boyu heç bir real nəticə verməyən ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə də toxunan Z.Əsgərov bu qrupun artıq tarixi arxivə qovuşduğunu diqqətə çatdırıb.

Vitse-spiker sənəddə xüsusilə yer alan Zəngəzur dəhlizini strateji əhəmiyyətli məqam kimi qiymətləndirib. Onun sözlərinə görə, bu dəhliz maneəsiz əlaqənin təmin edilməsinə şərait yaradacaq: “Eyni zamanda, imzalanmış sənədlər Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın yeni mərhələyə keçməsinin əsasını qoyur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni dünya düzəninin formalaşmasında mühüm rol oynayır. Vaşinqton razılaşması bu prosesin bariz nümunəsidir və sülh diplomatiyasının, həmçinin müdrik liderliyin təntənəsidir”.

İclasda çıxış edən digər deputatlar da Vaşinqton razılaşmalarının əhəmiyyətini vurğulayıblar.

Sonda növbədənkənar sessiyanın xüsusi iclasına yekun vuran spiker Sahibə Qafarova bütün bu uğurlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək, ölkəmizi yeni qələbələrə aparmaq naminə ona fəaliyyətində uğurlar arzulayıb.

***Nardar BAYRAMLI***

# Bakı-Budapeşt əlaqələri etibarlı tərəfdaşlığa əsaslanır

Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində Macarıstanla əməkdaşlıq xüsusi yer tutur. Dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən ikitərəfli əlaqələrin daha da genişləndirilməsi hər iki tərəf üçün prioritet hesab olunur. Prezident İlham Əliyevin də xarici siyasət kursunda Macarıstan ilk yerlərdən birini tutmuş, yaradılmış güclü siyasi dialoq və strateji əməkdaşlıq sayəsində əlaqələr yeni mərhələyə daxil olmuşdur. 2014-cü ildə imzalanmış “Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə”, habelə 2023-cü ildə qəbul edilən “Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə” münasibətləri ən yüksək zirvəyə yüksəldib.



**Hökumətlərarası Birgə Komissiya iqtisadi əməkdaşlığı gücləndirən platformadır**

Azərbaycan-Macarıstan Hökumətlərarası Birgə Komissiyası iqtisadi münasibətlərin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Azərbaycan və Macarıstan arasında 61 sənədin imzalanması, geniş hüquqi bazanın formalaşdırılması, ticarət dövriyyəsinin 2024-cü ildə 29 faiz artaraq 62 milyon dolları ötməsi, enerji və bərpa olunan enerji sahəsində mühüm layihələrin həyata keçirilməsi, habelə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Macarıstan şirkətlərinin fəal iştirakı və humanitar əlaqələrin genişlənməsi mühüm nailiyyətlər kimi qiymətləndirilə bilər.

Bu günlərdə keçirilən komissiyanın XI iclasında iqtisadi əlaqələrin dinamikliyinə bir daha nəzərə salınıb, yeni imkanlar üzrə birgə addımların atılmasının vacibliyinə toxunulub. Komissiyanın həmsədrləri, Azərbaycanın maliyyə naziri Sahil Babayev bildirib ki, ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq, qarşılıqlı etimad və hörmət prinsipləri əsasında genişlənir. 2024-cü ildə Macarıstanın Baş naziri Viktor Orbanın Şuşada Türk Dövlətləri Təşkilatının Zirvə toplantısında və Bakıda keçirilmiş COP29-da iştirakının, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin may ayında Macarıstana etdiyi sonuncu səfər tərəflər arasında dostluğun və strateji tərəfdaşlığın aydın göstəricisidir.

**Macarıstanın enerji təhlükəsizliyində Azərbaycanın rolu güclənir**

Azərbaycan Pan-Avropa klubuna qoşduğu Macarıstanın enerji təhlükəsizliyində də mühüm təminatçıdır. Rəsmi Budapeşt Azərbaycanın təşəbbüskarlığı və qətiyyəti sayəsində Cənub Qaz Dəhlizində yer almış əsas tərəfdaşlardan birinə çevrilib. Azərbaycan öz qaz ixracının coğrafiyasını genişləndirməklə Macarıstanı da əlavə resurslarla təchiz etməyi düşünür. Bu isə Budapeştin Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropanın enerji bazarlarında yaranmış çətin və ağır tarif yüklərindən xilas olması, iqtisadi problemlərinin həllində mühüm rol oynayacaq.

Tərəflər həm də “yaşıl enerji” layihələrində də fəal işləyir və Azərbaycanın çox böyükmiqyaslı yaşıl enerji gündəliyi macar şirkətləri üçün cəlbedicidir. Həmin resursların istehsalı və emalı növbəti mərhələdə işə düşəcək Xəzər-Qara dəniz-Avropa “yaşıl enerji” kəməri vasitəsilə Macarıstana da bərpaolunan enerjinin nəqlinə imkan verəcək. Yəni Azərbaycan Macarıstanı qazla yanaşı, alternativ enerji mənbələri ilə də təmin edəcək.

**Macarıstan Şimal-Cənub, Şərq-Qərb dəhlizlərində yer alır**

Komissiyanın digər həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycanla Macarıstan arasında əməkdaşlığın qarşılıqlı hörmət və fayda üzərində qurulduğunu və bu əməkdaşlığın ən strateji sahələri əhatə etdiyini vurğulayıb. Azərbaycanla enerji sahəsində əməkdaşlığın neft və qaz resursları olmayan Macarıstanın beynəlxalq enerji bazarında mövqeyində də dəyişikliyə gətirib çıxardığını qeyd edib. Macarıstan hazırda yalnız qaz alıcısı deyil, həm də artıq başqa ölkələrə qaz satışını həyata keçirir.

Eyni zamanda, hər iki ölkə qlobal nəqliyyat-logistika qovşaqlarında fəal əməkdaşlıq edir. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri qitələr arasında mühüm əlaqələndirmə mərkəzi olmaqla böyük bir coğrafiyada rifaha və sabitliyə xidmət edir. Azərbaycanın bu qətiyyətli nəqliyyat strategiyası rəsmi Budapeştin milli maraqları ilə üst-üstə düşür və Macarıstan logistika, ticarət, enerji tranziti və sənaye sahələrində əməkdaşlıq baxımından bu marşrutlardan faydalanmaq niyyətində qərarlıdır. Birgə Komissiyanın iclasında imzalanan protokol və Anlaşma Memorandumu hər iki tərəfin iqtisadi əməkdaşlıqda müasir baxışlarını əks etdirir.

**Biznes-forum qarşılıqlı investisiya qoyuluşunu stimullaşdırır**

Hökumətlərarası Birgə Komissiyanın XI iclası çərçivəsində dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə Azərbaycan-Macarıstan biznes forumunun keçirilməsi isə əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirmək baxımından yeni imkanlar açır. Qeyd edək ki, ötən dövrdə Bakı və Budapeştdə 20-yə yaxın biznes forum, işgüzar görüş və digər tədbirlər keçirilib ki, bu da Azərbaycan və Macarıstan şirkətləri arasında iqtisadi-investisiya təşəbbüskarlığını artırıb. Ölkələr arasında ticarət dövriyyəsi 2024-cü ildə 65 milyon dollara yaxın olsa da, tərəflər bunu qaneedici hesab etmir və yeni imkanları dəyərləndirmək niyyətindədir.




Ümumilikdə 90-dan artıq şirkət, o cümlədən Azərbaycandan 30 şirkətin iştirak etdiyi növbəti biznes-forumda ticarət, biznes və investisiya, energetika, əmək, məşğulluq və sosial müdafiə, elm və təhsil, səhiyyə, mədəniyyət, turizm, qida təhlükəsizliyi, şəhərsalma, su ehtiyatlarının idarə edilməsi və digər sahələrdə əməkdaşlığın gücləndirilməsi ilə bağlı faydalı müzakirələr aparılıb. AZPROMO-nun icraçı direktorunun müavini Tural Hacılı Azərbaycan, o cümlədən Qarabağ bölgəsinin investisiya imkanları ilə bağlı geniş məlumat verib, Macarıstan sahibkarlarını əlverişli investisiya mühiti ilə yaxından tanış olmağa və bu potensialdan faydalanmağa dəvət edib.

Forum çərçivəsində Azərbaycanın “Hieronica Limited” şirkəti ilə Macarıstanın İxracın Təşviqi Agentliyi (HEPA) arasında Anlaşma Memorandumu imzalanıb. Biznes-forumda iş adamları arasında görüşlər keçirilib, gələcək əməkdaşlığa dair müzakirələr aparılıb.

Ümumilikdə, həm Azərbaycan-Macarıstan Hökumətlərarası Birgə Komissiyası XI iclası çərçivəsində, həm də biznes-forumda əldə edilən razılaşmalar biznes ictimaiyyəti və investorlar üçün konkret layihələrdə praktiki fəaliyyəti təşviq etməklə, yeni istehsal, emal, ticarət və bazarlara çıxış baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, Macarıstan şirkətlərinin Azərbaycana investisiya qoymasını stimulaşdırır.

***E.CƏFƏRLİ***

# Uçot dərəcəsi sabit qalacaq

## “Trading Economics” Azərbaycanla bağlı proqnozlarını açıqlayıb




Dünyanın nüfuzlu iqtisadi tədqiqat qrupu olan “Trading Economics” (TE) dünya ölkələrində pul siyasəti, uçot dərəcəsi, inflyasiya ilə bağlı yeni proqnozlarını açıqlayıb. TE-nin ehtimallarına görə, Azərbaycanda 2025-ci ildə bank sektoru üçün faiz dəhlizi sabit qalacaq. Azərbaycan Mərkəzi Bankının (MB) yürütdüyü uçot siyasəti təmkinli və konservativ olmaqla, mövcud ssenarilər üzrə davam etdiriləcək. “Trading Economics” hesab edir ki, ölkəmizdə faiz dərəcələri üçüncü və dördüncü rüblərdə 7 faiz intervalında qalacaq.

Tədqiqat qrupunun Azərbaycanın bank sektoru ilə bağlı ssenariləri Mərkəzi Bankın uçot dərəcəsi üzrə fərziyyələri ilə demək olar ki, tam üst-üstə düşür. Belə ki, Mərkəzi Bank cari il iyulun 24-də son iclasında uçot dərəcəsini 7 faiz, faiz dəhlizinin aşağı həddini 6 faiz, dəhlizin yuxarı həddini isə 8 faiz həddində müəyyənləşdirib. Uçot dərəcəsinin həddi əvvəlki 2 aylıq 7,25 bəndə nisbətən 0,25 faiz aşağı salınıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində yumşalmanı labüdləşdirib.

**Mərkəzi Bankın ehtimalları nikbindir**

Məlumdur ki, uçot dərəcəsi cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. Mövcud vəziyyət göstərir ki, Azərbaycanda inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. Dünya əmtəə, xüsusilə də ərzaq qiymətlərinin davamlı azalması, beynəlxalq daşıma xərclərinin pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşması, ticarət tərəfdaşlarında həyata keçirilən sərt pul siyasəti və nominal effektiv məzənnənin bahalaşması inflyasiya idxalına azaldıcı təsir göstərib. Belə ki, qlobal iqtisadi aktivliyin zəifləməsi, eləcə də qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırıb. Təhlillərə əsasən, son aylarda xarici amillər üzrə qeyri-müəyyənliklər qalsa da, onların inflyasiyaya artırıcı təsiri əhəmiyyəti olmayıb. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, 2025-ci ilin iyununda əmtəə qiymətləri indeksi illik 0,6 faiz, o cümlədən ərzaq qiymətləri indeksi 4,2 faiz azalıb. Məhz bu amillər Azərbaycanı xarici inflyasiya təzyiqlərindən neytrallaşdırır. “Trading Economics” sabit uçot dərəcəsi ilə bağlı baxışları da bu ssenarilərə əsaslanır.

**2025-ci və 2026-cı illərdə inflyasiya hədəf diapazonu daxilində qalacaq**

Mərkəzi Bankın bir müddət açıqladığı proqnozlara əsasən, cari ildə inflyasiya proqnozu 2025-ci və 2026-cı illərdə hədəf diapazonu daxilində (4±2%) qalacaq. MB-nin iyul proqnozuna görə, inflyasiya 2025-ci ildə 5,7 faiz təşkil edəcək. 2025-ci ilin illik inflyasiya proqnozuna dövlət istehlakı 0,5 faiz-bənd, ev təsərrüfatlarının istehlakı 1,26 faiz-bənd, kənd təsərrüfatı istehsalçıları qiymətləri üzrə 3,17 faiz-bənd, ticarət tərəfdaşlarında inflyasiya 2,78 faiz-bənd artırıcı təsir göstərəcək.

İstehlak qiymətləri indeksi üzrə proqnozların reallaşması bir sıra xarici və daxili amillərin dəyişimindən asılı olacaq. Belə ki, qlobal iqtisadiyyatda geosiyasi gərginliyin yüksək qalması, qlobal fraqmentasiya şəraitində mühüm ticarət marşrutlarında yaranan maneələr və qeyri-müəyyənliyin davam etməsi əmtəə qiymətlərinin yüksəlməsinə və qlobal inflyasiya proseslərinin sürətlənməsi fonunda idxal inflyasiyası vasitəsilə ölkədaxili inflyasiyaya artırıcı təsir göstərməsinə səbəb ola bilər. Eyni zamanda, qlobal iqlim dəyişikliklərinin məhsuldarlığa və qlobal ərzaq istehsalına təsiri gözlənilləndir. Daxili faktorlardan inflyasiyanı artıra biləcək başlıca risk isə yerli xərc amillərinin və məcmu tələbin izafi artımı ilə əlaqədardır.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək. Qarşıdakı aylarda uçot dərəcəsi xarici bazarlar, ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq müəyyənləşəcək. Xarici faktorlarda əsas rol oynayan mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq bahalaşması gözlənilmir. Doğrudur, geosiyasi amillər risk olaraq qalır, ancaq enerji daşıyıcılarının ucuzlaşması tendensiyası, sənaye və xammalların qiymətində sabitlik beynəlxalq qiymət bazarlarını təhdid etmir.

*E. CƏFƏRLİ*

# Türkiyə - Ermənistan münasibətlərinin normallaşmasında yeni mərhələ

Rəsmi İrəvan Ermənistan və Türkiyənin xüsusi nümayəndələrinin gözlənilən görüşü ilə bağlı məlumatı rəsmən təsdiqləyib. Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. “Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində yaxın günlərdə Ruben Rubinyan və Sərdar Kılıç arasında görüş planlaşdırılır”, - deyə məlumatda bildirilir.

Qeyd edək ki, bundan əvvəl Türkiyə mətbuatı xüsusi nümayəndələrin Marqara-Əlican sərhəd-keçid məntəqəsinin fəaliyyəti ilə bağlı ilk görüşlərini keçirəcəkləri barədə məlumat yayıb.

**Türkiyənin prinsipial mövqeyi**

Türkiyə regionun aparıcı dövlətlərindən biri kimi, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə prinsipial yanaşmadan çıxış edib. Bu münaqişənin fəsadları özünü yalnız Azərbaycanın ərazi bütövlüyünün pozulmasında göstərmirdi. İşğal



həmçinin regional təhlükəsizliyə və sabitliyə ciddi təhdidlər yaradırdı. Eləcə də, region dövlətləri arasında potensial əməkdaşlıq imkanlarından tam həcmdə istifadə olunması mümkün deyildi. Qardaş Türkiyə Azərbaycan ərazilərinin işğal atında qalması faktı ilə barışa bilməzdi və barışmadı da. Münaqişənin başladığı ilk illərdən rəsmi Ankara Azərbaycanla həmrəylik əlaməti olaraq Ermənistanla sərhədlərini bağladı. Türkiyə tərəfindən verilən bu qərar işğalçı ölkənin sərt şəkildə cəzalandırılması demək idi. Bundan sonra Azərbaycanın və Türkiyənin birgə səyləri ilə Ermənistan dalan ölkəyə çevrildi. Paralel şəkildə, rəsmi Ankara Azərbaycanın haqq səsinin eşidilməsi, ədalətli mövqeyinin təsdiqini tapması üçün beynəlxalq müstəvidə fəal iş aparırdı. Biz Türkiyənin ədalətli yanaşmasına, həmçinin Vətən müharibəsi günlərində şahidlik etdik. Qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğan və digər yüksəksəviyyəli rəsmiləri müharibənin ilk saatlarından Azərbaycana mənəvi-siyasi dəstəklərini ifadə etdilər. Bu, haqq mübarizəsinə qalxan, ədalətli müharibə aparan Azərbaycan üçün əlavə stimul oldu. 44 günlük müharibədən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra bir sıra dairələr və ayrı-ayrı ölkələr tərəfindən respublikamıza qarşı təzyiq kampaniyalarına start verilmişdi. Belə çirkin kampaniyaların dəf edilməsində də qardaş Türkiyənin səsi ucadan eşidilirdi.

Postmüharibə mərhələsində müəyyən güc mərkəzləri tənzimləmə prosesində respublikamızın mövqeyini zəiflətməkdən ötrü daha bir məkrli planlarını işə saldılar. Söhbət Ermənistan - Türkiyə münasibətlərinin normallaşmasını Azərbaycanla Ermənistan arasında başlayan tənzimləmə prosesindən ayırmaq cəhdərindən gedir. Bu, baş versə idi, Ermənistanın əli güclənəcəkdi və rəsmi İrəvanın sülhyaratma prosesini uzatmaq üçün manipulyasiyalara əl atmaq imkanları artacaqdı. Türkiyə hakimiyyəti burada da sağlam məntiqdən çıxış etməklə Azərbaycanla əlaqələndirilmiş fəaliyyətlərə üstünlük verdi. Beləliklə də, məkrli dairələrin Ermənistan -Türkiyə münasibətlərini Azərbaycan - Ermənistan tənzimləmə prosesindən ayırmaq cəhdləri iflasa uğradı.

**Vaşinqton razılaşmalarından sonra yaranan yeni reallıqlar**

Türkiyə-Ermənistan münasibətlərində yeni mühüm mərhələ başlayır. İki ölkə ilk dəfə heyətlərarası görüş üçün bir araya gəlir. Diplomatik mənbələrdən əldə edilən məlumata görə, səfir Sərdar Kılıçın rəhbərlik etdiyi heyətin Ermənistan tərəfinə Alican sərhəd-keçid məntəqəsindən keçərək getməsi gözlənilir.

İlk dəfə keçiriləcək heyətlərarası görüşdə Türkiyə-Ermənistan ikitərəfli münasibətlərinin normallaşdırılması üçün bəzi qərarların qəbul olunması və daha əvvəl qəbul edilmiş qərarların icraya yönəldilməsi gündəmdə olacaq. Xatırladaq ki, əvvəki illərdə aparılmış beş görüşdə yük daşımaları və hava uçuşlarının başlanması, sərhədlərin açılması üçün texniki və infrastruktur işlərinin həyata keçirilməsi barədə qərarlar qəbul edilmişdi. Diplomatik pasport daşıyan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi ilə yanaşı, üçüncü ölkə vətəndaşlarının Türkiyə-Ermənistan sərhədindən keçməsinə icazə verilməsi məsələsində də razılıq əldə edilmişdi. Lakin qərarlar qəbul edilsə də, onların icrası böyük ölçüdə təmin olunmayıb.

Hazırda isə Ermənistan - Türkiyə münasibətlərinin normallaşmasında yeni mərhələyə keçid edildiyi müşahidə olunur. Hadisələri Vaşinqton razılaşmalarının nəticəsində yaranan yeni reallıqlar kontekstində dəyərəndirmək lazım gəlir. Son onilliklər ərzində Azərbaycanın və Türkiyənin Ermənistanla münasibətlərindəki gərginlik bu ölkənin işğalçılıq siyasətindən qaynaqlanırdı. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasına hərbi-siyasi yolla nail olsa da, iki ölkə arasında sülh sazişinin imzalanması məhz qarşı tərəfin manipulyasiyalara əl atması səbəbindən ləngiyirdi. Avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində iki ölkə arasında sülhyaratma prosesində mühüm uğur əldə olundu - Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş” paraflandı. Paraflanan sənədin mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər. Eyni zamanda tərəflər bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiq edirlər. Həmçinin Vaşinqton razılaşmalarının nəticəsi olaraq ATƏT-in Minsk qrupunun və onunla bağlı olan qurumların fəaliyyətinin dayandırılması artıq çoxillik münaqişənin beynəlxalq gündəlikdən çıxarıldığı anlamına gəlir. Beləliklə, Cənubi Qafqaz coğrafiyası heç vaxt olmadığı qədər sülhə yaxındır. Dünya Azərbaycanın sülh gündəliyini qəbul edir. Bundan sonra Azərbaycan - Ermənistan, eləcə də Ermənistan - Türkiyə münasibətlərində yeni mərhələ başlayır.

**Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılması regional əməkdaşlığa güclü təkan verəcək**

Qeyd olunduğu kimi, son vaxtlarda Türkiyə və Ermənistan arasında aparılan danışıqlar əsasən sərhədlərin açılmasını əhatə edib. Hazırkı geosiyasi reallıqlar fonunda Azərbaycanın təşəbbüsü ilə gündəmə gələn Zəngəzur dəhlizi (Tramp marşrutu) Avrasiyada daha optimal nəqliyyat bağlantılarının təmin olunması baxımından xüsusi aktuallıq daşıyır. 44 günlük müharibənin başa çatmasından sonrakı beş ildə Azərbaycan dəhlizin yaradılmasına həm siyasi, həm də praktiki müstəvidə güclü səy göstərsə də, Ermənistan müxtəlif bəhanələr gətirməklə layihənin reallaşdırılması istiqamətində hər hansı bir addım atmayıb. Vaşinqtonda aparılan müzakirələrin ən mühüm nəticələrindən biri isə regionda kommunikasiyaların blokdan çıxarılmasının razılaşdırılmasıdır. Bununla bağlı liderlərin Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyanatda konkret müddəalar yer alıb. Sənəddə əksini tapan müddəalara əsasən, Azərbaycanın əsas hissəsi ilə blokadada qalan Naxçıvan arasında maneəsiz keçid razılaşdırılıb. Regionda kommunikasiyaların bərpası Azərbaycan üçün strateji önəm daşıyır. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısının yaradılması Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir.

Eyni zamanda, Zəngəzur dəhlizi (Tramp marşrutu) optimal regional bağlantını təmin edəcək. Azərbaycanın starateji baxışına görə Zəngəzur dəhlizi (Tramp marşrutu) Orta Dəhlizin bir qolu kimi inkişaf etdiriləcək. Hazırda Orta Dəhlizin Gürcüstandan keçən seqmenti aktivdir. Zəngəzur dəhlizinin (Tramp marşrutunun ) yaradılması ilə Avrasiya coğrafiyasında tranzit imkanları genişlənəcək. Paralel şəkildə, Ermənistanla Türkiyə arasında məlum səbəblərdən bağlı olan sərhədlər açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq.

*Mübariz ABDULLAYEV*

# Fransada hökumətə etimadsızlıq: lehinə 194, əleyhinə 364 səs

Fransa Milli Assambleyasında bir qədər bundan əvvəl anonsu edilən hökumətə etimadsızlıq səsverməsi baş tutub. Gözlənildiyi kimi, səsvermənin nəticələri Makronun qurduğu hökumət üçün uğursuz olub. Belə ki, parlament çoxluğu Baş nazir Fransua Bayru hökumətinə etimadın əleyhinə səs verib. Milli Assambleyada səsvermə belə başa çatıb: Baş nazirə etimadın lehinə 194, əleyhinə 364.

**Ölkə daxilində və çölündə sürətlə nüfuzunu itirən Makron iqtidarı**

Fransada siyasi böhran, xüsusilə də hökumətlərin tez-tez dəyişdirilməsi artıq permanent hal alıb. Prezident Makron son 20 ayda dördüncü baş nazirini etimadsızlıq səsverməsində itirir və bu, borc içində olan ölkəni daha dərin böhrana sürükləyir. Kədərli reallıq ortadadır: Makronun 2018-ci ildən bəri həyata keçirdiyi səriştəsiz siyasət ölkəni bataqlığa salıb və indiki komanda ilə buradan çıxmaq mümkünsüz görünür.

Fransa xüsusilə də geriləyən iqtisadiyyatı ilə Avropa İttifaqının (Aİ) drayver ölkəsi mövqeyini sürətlə itirməkdədir. Paralel şəkildə, Yelisey Sarayı getdikcə daha çox dərəcədə qlobal proseslərdən kənarlaşdırılmaqdadır. Mərkəzi hakimiyyətin Afrikada, dənizaşırı ərazilərdə yerləşən müstəmləkə ərazilərində nüfuzunu itirməsi də ciddi problem kimi qəbul olunur. Fransa müstəmləkəçiliyinin 500 illik tarixi var. Sümürmə siyasəti bu ölkəyə yüzilliklər ərzində böyük sərvətlərə sahibləmək imkanı qazandırıb. İndi isə Fransa gah bu, gah da digər müstəmləkə ərazilərindən biabırcasına qovulur.

Ölkə daxilində də vəziyyət son həddədək gərginləşib. Keçirilən rəy sorğularında Makronun reytinqi 20 faizdən də aşağı düşüb. Hətta bunun da şişirdilmiş rəqəm olduğu bildirlir. Ölkə vətəndaşlarının ümumi mövqeyi belədir ki, Fransanın bugünkü kədərli reallıqları fonunda Makronun reytinqinin 15-20 faiz arasında qalması belə təəccüb doğurur. Eyni zamanda, prezidentin ətrafında cəmləşən mərkəzçi koalisiyanın nüfuzunun əhəmiyyətli dərəcədə aşağı düşməsi fonunda sağçıların mövqeləri sürətə güclənməkdədir. Son günlərdə Fransada siyasi partiyalar və həmkarlar ittifaqlarından kənar vətəndaş təşəbbüsləri tərəfindən irəli sürülən “Hər şeyi dayandırmaq!” çağırışı ölkə üzrə sosial şəbəkələrdə geniş yayılmağa başlayıb. Bu təşəbbüsün məqsədi sentyabrın ikinci ongünlüyündən etibarən ölkənin tam iflic vəziyyətə salınmasıdır. Sosial şəbəkələrdə yayılan mesajlarda təşəbbüskarlar insanları tam boykot, itaətsizlik və həmrəylik vasitəsilə ölkədə bütün sahələrdə işlərin dayandırılmasına - tətil etməyə çağırırlar.

**Hökumətlər dəyişsə də, problemlər qalır...**

Baş nazir Bayrunun daha əvvəl Milli Assambleyada keçirilən iclasda bildirdiyi kimi, deputatların hökumətə etimad göstərməmək qərarı onun istefasına səbəb olacaq. Beləliklə, Makron son 20 ayda dördüncü baş nazirini etimadsızlıq səsverməsində itirir. Bayrunu kimin əvəzləyəcəyi hələlik bəlli deyil. Bununla belə, reallıq ortadadır: Baş nazirlər dəyişsə də, problemlər qalmaqda davam edir. Bayrunun özü Milli Assambleyanın əvvəki iclaslarında cıxışında ölkənin 3,4 trilyon avroluq böyük dövlət borcunu xatırladıb. Baş nazirin etirafına görə, maliyyə siyasəti dəyişdirilməsə, 2030-cu ilə qədər dövlət borcuna xidmət ölkəyə 100 milyard avrodan çox vəsaitə başa gələcək. 2024-cü ildə dövlət borcuna xidmət dəyərinin 69 milyard avroya çatdığını bildirən Baş nazir vurğulayıb ki, borc yükü hər saniyədə 5 min avro artır.



Aydın məsələdir ki, Makron iqtidarının diletantlıq ucbatından böyük borclanmaya getməsinin fəsadlarının aradan qaldırılması sərt müdaxilələr edilməsinin zəruriliyini gündəmə gətirib. Ancaq Bayru ölkənin iqtisadi siyasətinin dəyişməsinin vacibliyindən bəhs etsə də, o, borc yükünün və büdcə kəsirinin azaldılmasının asan yolunu sərt qənaət rejiminə keçiddə görür. 2026-cı ilin büdcə qanunu məhz belə yanaşma əsas götürülməklə hazırlanıb ki, bu da birmənalı qarşılanmayıb. Həmkarlar ittifaqları bu qanunu ədalətsiz, sosial hüquqlara qarşı hücum kimi qiymətləndiriblər. Həqiqətən də, inflyasiyanın, qiymətlərin sürətlə artması, gəlir imkanlarının isə azalması fonunda nəyi necə qənaət etməyin izahını vermək çox çətindir.

*Mübariz FEYİZLİ*

# Böhran fonunda...

**BMT Baş Assambleyasının növbəti sessiyası başlayıb. Qeyd edək ki, sentyabrın 9-da BMT Baş Assambleyasının 79-cu sessiyasının sonuncu iclası Filemon Yanqın sədrliyi ilə keçirilib - onun səlahiyyətləri Baş Assambleyanın 80-ci sessiyasının sədri, əvvəllər Almaniya Xarici İşlər Nazirliyinə rəhbərlik etmiş Annalena Berboka təhvil verilib.**

## BMT Baş Assambleyasının 80-ci sessiyası işinə başlayıb

### Sessiyada hansı məsələlər müzakirə olunacaq?

BMT Baş Assambleyasının 80-ci sessiyasında bir sıra beynəlxalq məsələlər, xüsusilə də qlobal dünyanı maraqlandıran və hazırda beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq yaradan məsələlər - çoxvektorlu dünya nizamının formalaşması, beynəlxalq sülh və təhlükəsizlik, terrorizmlə mübarizə, silahsızlanma və nüvə silahının yayılmasının qarşısının alınması, iqlim dəyişikliyi, davamlı inkişaf məqsədləri, insan haqları və beynəlxalq hüquq normalarının təminatına dair ətraflı və geniş müzakirələr aparılacaq. Müzakirələrdə dünyanın müxtəlif regionlarında münaqişə ocaqları, o cümlədən BMT-nin Nizamnaməsinə düzəlişlər və dəyişikliklər ilə bağlı məsələlərə də diqqət ayrılacaq. Xüsusilə qeyd etmək lazımdır ki, sentyabrın 23-dən 27-dək, eləcə də sentyabrın 29-da keçiriləcək yüksək səviyyəli tədbirlər çərçivəsində ümumi siyasi debatlar baş tutacaq. Bu müddət ərzində ümumilikdə 195 nümayəndə heyətinin çıxışı gözlənilir. BMT rəsmilərinin məlumatlarına görə, Baş Assambleyanın 80-ci sessiyasının iclaslarında prioritet məsələlər arasında yeni dünya nizamı, beynəlxalq sülh və təhlükəsizlik və qlobal iqlim dəyişiklikləri barədə məsələlər daha çox önəm kəsb edəcək.



### Gecikmələr qurumun fəaliyyətinə necə təsir göstərir?

BMT Baş Assambleyasının 80-ci sessiyası təşkilatı bürümüş kəskin maliyyə böhranı fonunda keçirilir. BMT bir neçə ölkənin üzvlük haqlarının, xüsusilə ən böyük donor olan ABŞ-ın təqribən 3 milyard dollar dəyərində borcunun, o cümlədən sülhməramlı əməliyyatlar üçün əhəmiyyətli məbləğlərdə ödənişlərin ödənilməməsi səbəbindən büdcə kəsiri ilə üzləşib. Bundan əlavə, ikinci ən böyük donor olan Çinin də ilin sonuna qədər ödənişlərini gecikdirməsi təşkilatın maliyyə vəziyyətini daha da ağırlaşdırıb. Bu gecikmələr BMT-ni xərcləri azaltmağa, işə qəbulu dondurmağa və humanitar proqramları, o cümlədən uşaqlara və qaçqınlara yardımı azaltmağa məcbur edir.

### BMT yeni proqrama başlayıb

Böhrana cavab olaraq, BMT-nin Baş katibi Antoniu Quterreş 2026-cı ilə qədər 6900-ə yaxın iş yerinin itirilməsinə səbəb ola biləcək xərclərin modernləşdirilməsinə və 20 faiz azaldılmasına yönəlmiş UN80 islahat proqramına başlayıb. Qeyd edək ki, ABŞ fəal şəkildə BMT-nin işini optimallaşdırmağa çağırsa da, 2025-ci ilin iyul ayında əvvəllər təsdiq edilmiş 1 milyard dollar vəsaitin ayrılmasının ləğvi də daxil olmaqla maliyyə kəsintiləri vəziyyəti xeyli çətinləşdirib. Beynəlxalq təşkilatın mənbələri bildiriblər ki, Prezident Donald Tramp administrasiyasının təşəbbüsü ilə həyata keçirilən tədbirlər böhranlı regionlarda sülhməramlı missiyalar və humanitar yardım kimi əsas proqramları təhdid edir və bəzi üzv dövlətlər arasında narahatlıq yaradır. UN80 islahatının bir hissəsi olaraq 2026-cı ilə qədər UNICEF, UNFPA və "UN Women" kimi bir neçə BMT agentliyinin baş qərargahının Nyu-Yorkdan Nayrobiyə mümkün köçürülməsi müzakirə edilir. Bu addım əməliyyat xərclərini azaltmağa yönəlib - Nayrobidə yerli işçilərə ödənişlərdə 25 faizə qədər, beynəlxalq işçilərə isə 13 faizə qədər qənaət ediləcək.

***Yunis ABDULLAYEV***

# ABŞ və Venesuela arasında gərginlik artır

ABŞ Prezidenti Donald Tramp qonşu ölkələrlə problemlər, narkoticarət, qanunsuz miqrasiya və s. məsələlərin həllinə çalışır. Avqustun sonlarında Ağ Evin aparat rəhbərinin müavini Stiven Miller ABŞ hərbi gəmilərinin Venesuela sahillərinə yerləşdirilməsi ilə bağlı məlumatı şərh edərkən bildirmişdi ki, ölkənin Silahlı Qüvvələrinin missiyasına Amerika vətəndaşlarını cinayətkar kartellərdən və xarici terror təşkilatlarından qorumaq daxildir: "Bu planetdə Qərb yarımkürəsində fəaliyyət göstərən cinayətkar kartellər və narkotik tacirlərindən daha çox amerikalının ölümünə görə məsuliyyət daşıyan heç bir təşkilat yoxdur".

Bu bəyanatdan bir neçə gün sonra isə ABŞ ordusu Karib dənizində Venesueladan narkotik daşıyan gəmini vurdu.

## ABŞ bölgədə hərbi mövcudluğunu artırır

ABŞ hakimiyyəti narkokartellərə qarşı əməliyyatlar aparmaq məqsədilə Puerto-Rikodakı aerodroma 10 ədəd F-35 qırıcısı yerləşdirmək barədə də göstəriş verib. Bu addım regiondakı gərginliyi daha da artırmaq ehtimalı yaradır. "Reuters" agentliyinin məlumatına əsasən, qırıcılar ABŞ-ın Karib hövzəsinin cənubunda onsuz da geniş olan hərbi mövcudluğunu gücləndirəcək. Bu qərar Prezident Donald Trampın narkotik qaçaqmalçılığında ittiham etdiyi qruplaşmaların fəaliyyətini məhdudlaşdırmaqla bağlı etdiyi seçkiqabağı vədinin icrası çərçivəsində verilib. Qırıcıların bu həftənin sonunadək Karib hövzəsinin cənub hissəsinə çatacağı bildirilir. Qeyd olunur ki, artıq 7 ABŞ hərbi gəmisi və 1 sürətli nüvə sualtı qayığı həmin regionda yerləşdirilib və ya yaxın günlərdə orada olacaq. Həmin gəmilərdə 4,5 mindən çox dənizçi və dəniz piyadası xidmət aparır.

Venesuela Prezidenti Nikolas Maduro isə hadisə ilə əlaqədar bildirib ki, ABŞ Venesuelaya əsassız bəhanə ilə hücum edərək ölkənin təbii sərvətlərini ələ keçirmək və respublikanın müstəqil inkişafına mane olmaq istəyir. Bununla belə, dövlət başçısı bəyan edib ki, Venesuelada koka plantasiyaları və ya narkotik laboratoriyaları yoxdur və yaxın gələcəkdə ölkə ərazisindən narkotik tranziti tamamilə bağlanacaq: "BMT-nin və bir sıra ölkələrin fakti-ki vəziyyəti əks etdirən və ekspert yoxlamasından keçən hesabatlarına görə, Venesuela ərazisi koka plantasiyalarından və kokain laboratoriyalarından azaddır və biz təzliklə narkotiklərin tranzitini tamamilə bağlayacağıq". Venesuela lideri bildirib ki, Cənubi Amerikadan gələn kokainin 87 faizi Kolumbiya, Ekvador və Perudan Sakit Okean vasitəsilə, 8 faizi Kolumbiyanın La Quajira departamentinin Karib dənizi sahilləri ilə, cəmi 5 faizi isə Venesuela ərazisindən daşınmağa cəhd edilib, bunun 70 faizi ələ keçirilib. Maduro qeyd edib ki, son illərdə narkotik ticarəti üçün istifadə edilən 402 təyyarə zərərsizləşdirilib və Venesuela tezliklə öz ərazisindən narkotik tranzitini tamamilə əngəlləyəcək.



Lakin Vaşinqtonun Latın Amerikası kartellərinə qarşı gücləndirdiyi mübarizə və Venesuela ilə münasibətlərin pisləşməsi fonunda ABŞ Hərbi Dəniz Qüvvələri də Karib dənizində mövcudluğunu artırıb. "Newsweek" nəşrinin məlumatında qeyd olunub ki, gəmilərin bölgəyə toplaşmasına avqust ayından başlanılıb. Bundan əvvəl azı 8 gəmi və 1 sualtı qayığın bölgəyə cəlb olunduğu bildirilirdi. Peyk görüntüləri Panama sahillərində idarə olunan raket sistemi ilə təchiz olunmuş "USS Sampson" esminesi, "USS Gravely" və "USS Jason Dunham" esminesləri və "USS Minneapolis-St. Paul" sahil zonası gəmisini qeydə alıb. Puerto Rikonun cənubunda isə "Iwo Jima" universal desant gəmisi, "USS San Antonio" desant nəqliyyat-doku və "USS Fort Lauderdale" desant-helikopter gəmi-doku yerləşib. Həmçinin "P-8A Poseidon" sualtı gəmi əleyhinə təyyarə və "Boeing C-17 Globemaster III" hərbi nəqliyyat təyyarəsi də görüntülənib. Eyni zamanda, regionda "USS Newport News" çoxfunksiyalı atom sualtı qayığı da var, lakin onun dəqiq yeri məlum deyil.

## Donald Trampdan xəbərdarlıq

Belə bir şəraitdə ABŞ-ın müvafiq qurumları bugünlərdə Venesuelanın iki hərbi təyyarəsinin beynəlxalq sularda ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus gəminin yaxınlığından uçduğunu bəyan ediblər. Vaşinqton hesab edir ki, son dərəcə təxribatçı addım narkoterrorla mübarizə əməliyyatlarına mane olmaq məqsədi daşıyıb. Venesuelaya ABŞ-ın narkotiklərlə mübarizə və antiterror əməliyyatlarına mane olmağa, çəkindirməyə və ya müdaxilə etməyə cəhd etməmək tövsiyə olunub. Prezident Tramp isə bəyan edib ki, Venesuela hərbi təyyarələri ABŞ Hərbi Dəniz Qüvvələrinə təhdid yaradacağı halda vurulacaqlar. Tramp ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Den Keynə müraciətlə bildirib ki, Venesuela aviasiyası tərəfindən hər hansı bir təhdid yarandığı halda, hərbçilər öz mülahizələrinə əsasən hərəkət edə bilərlər.

CNN kanalı isə öz mənbələrinə istinadən məlumat yayıb ki, Donald Tramp Venesuelada yerləşən narkotik kartellərinə zərbə endirmək imkanını nəzərdən keçirir. Məlumata görə, bu cür planlar ABŞ administrasiyasının Venesuela Prezidenti Nikolas Maduronun mövqelərini zəifləməyə yönəlmiş siyasi kursunun daha geniş hissəsidir. CNN qeyd edib ki, yekun qərar hələ qəbul edilməyib. Mənbənin fikirlərinə görə, bəzi Amerika rəsmiləri bu həftə Venesuela sahilləri yaxınlığında gəmiyə zərbələrin endirilməsinin və narkotik tacirlərinə qarşı potensial zərbələrin Maduronun yaxın ətrafına təzyiq göstərəcəyini və onları hakimiyyət dəyişikliyi barədə düşünməyə vadar edəcəyini gözləyirlər.

## Maduro Karib və Atlantik sahillərinə 25 min hərbi qulluqçu yerləşdirir

Bütün bunların fonunda Venesuela Prezidenti Nikolas Maduro Donald Trampın təhdidinə cavab verib. Maduro hazırda silahsız mübarizə mərhələsində olduqlarını, lakin "lazım gələrsə", silahları işə salacaqlarını bildirib: "Biz sülh tərəfdarıyıq, amma, eyni zamanda, döyüşçü bir millətik. Kimsə - nə bu gün, nə də gələcəkdə bizi əsarət altına ala bilməz. ABŞ Venesuelada zorakılıq yolu ilə hakimiyyəti dəyişdirmək planlarından əl çəkməlidir. Əgər hücum olarsa, xalqımız milli, yerli və regional səviyyədə planlı və təşkilatlanmış şəkildə silahlı mübarizə mərhələsinə keçəcək". Venesuela xalqına hörmət olunmaq şərti ilə hər zaman dialoq və danışıqlara açıq olduqlarını vurğulayan Maduro "Venesuelanın Karib dənizindəki ərazi suları xalqa məxsusdur. Suiqəsdlər, təhdidlər, çevrilişlər və müdaxilələr Karib hövzəsi və Cənubi Amerikaya qayıtmamalıdır", - deyə bildirib.

Nikolas Maduro, həmçinin Kolumbiya sərhədində, eləcə də respublikanın Karib və Atlantik sahillərində 25 min hərbi qulluqçunun yerləşdirilməsi barədə əmr verib. Venesuela lideri bunu özünün "Telegram" kanalında bildirib: "Əmr verdim ki, kişi və qadından ibarət 25 min şanlı Milli Bolivar Silahlı Qüvvələrimizin sürətli reaksiya göstərən əməliyyat-taktiki qrupları Kolumbiya ilə sülh zonasına, Karib sahillərinə və Yeni Esparta, Sukre və Delta-Amakuro əyalətlərinin Atlantik sahillərinə yerləşdirilsin". O vurğulayıb ki, mobilizasiyanın əsas məqsədi milli suverenliyin qorunması, ölkənin təhlükəsizliyi və sülh uğrunda mübarizədir.

***N.BAYRAMLI***

# Viktor Orbanın xəbərdarlığı: böhran, ziddiyyət və parçalanma

Ötən əsrin son onilliyindən başlayaraq dünyanın aparıcı aktorlarından birinə çevrilməyi bacaran Avropa İttifaqı qlobal siyasi və iqtisadi arenada ən böyük birliklərdən biri kimi formalaşıb, şöhrət qazanıb. Amma son illərdə qurum daxilində kəskin ziddiyyətlər açıq şəkildə müşahidə olunur. Bunların sırasında maliyyə siyasətində parçalanma, miqrasiya böhranına yanaşmada fərqli mövqelər, enerji təhlükəsizliyi məsələsində ortaq xəttin tapılmaması, hüquq və demokratiya dəyərlərinə ikili standart yanaşmalar xüsusi yer tutur. Qərb Avropası ölkələri ilə Şərqi Avropa dövlətləri, xüsusilə Macarıstan, Slovakiya, Serbiya arasında yaranan müəyyən fikir ayrılıqları artıq institusional böhran səviyyəsinə yüksəlib. Brüsselin diktə etdiyi qaydaların bir çox üzv dövlətlər tərəfindən qəbul edilməməsi Aİ daxilində həm siyasi, həm də ideoloji uçurum yaradıb. Bu isə bəzən Aİ-ni özünün nizamnaməsinə zidd olan addımlar atmağa belə sövq edir. Nəticədə isə qurumun reputasiyası zədələnir, inam, etimad və hüquqi dəyərləndirmə itir...

## Avropa İttifaqının gələcəyi sual altındadır

### Orban 10 il müddət qoydu...

Son 1 ildə bir çox Avropa ölkəsi lideri Aİ-nin dağılacağı ilə bağlı pessimist proqnozlar verməkdədir. Bu günlərdə Macarıstanın Baş naziri Viktor Orban da Avropa İttifaqının gələcəyi ilə bağlı kəskin açıqlama verib. O, yaxın illərdə Aİ-nin ciddi sarsıntılarla üzləşəcəyini bildirib. Orbanın sözlərinə görə, mövcud gedişat davam edərsə, 2035-ci ildən sonra ümumi büdcənin qəbul edilməsi mümkünsüz olacaq: "Avropa İttifaqı tarixdə nəcib bir eksperimentin məyusedici nəticəsi kimi qalacaq", - deyə baş nazir vurğulayıb.

O, həmçinin Ukraynanın Aİ-yə və NATO-ya üzv olmaması gərəkdiyini bildirib: "Aİ hazırda "axsaq ördək" kimi davranır. Ukraynanın təhlükəsizlik zəmanətləri ABŞ-la deyil, Rusiya ilə müzakirə olunmalıdır", - deyə Orban əlavə edib.

İllərdir yerləşdiyi kontingenti lokal maraqlar çərçivəsində "idarə edən" Avropa İttifaqının eniş xəttində olması növbəti dəfə gündəmə gəlir - qeyd edildiyi kimi, bu tip açıqlamalar son dövrlərdə daha da intensivləşib. Sirr deyil ki, ənənəvi Qərb dövlətlərinin əksəriyyəti bu gün həm iqtisadi, həm də siyasi böhranla üzüzə qalıb. Hətta bəzi hallarda təşkilat haqqında söylənən onun korporativ maraqlara xidmət etməsi, rəhbər şəxslərin korrupsiya əməllərində ittiham olunması, maddi gəlir qarşılığında lobbi qruplarının sifarişlərini yerinə yetirməsi, müzakirə predmetinə çevrilir. Vəziyyət o həddə çatıb ki, ötən ilin sonunda "Bloomberg" agentliyi Avropa İttifaqının üzləşdiyi çətin iqtisadi və siyasi vəziyyətin onun beynəlxalq səhnədəki mövqeyinə ciddi zərbə vura və Brüsselin müstəqil qlobal gücə çevrilmək istəklərinə son qoya biləcəyini yazmışdı. Vurğulanırdı ki, "siyasi iflic, xarici təhdidlər və iqtisadi çətinliklərin" birləşməsi Aİ ölkələrini diqqəti ümum-Avropa mənafeyinə yönəltməyə deyil, öz maraqlarını qorumağa sövq edir. Çünki Avropa elitaları tənəzzülün artıq qaçılmaz olduğuna dair çoxlu dəlillərlə qarşılaşıblar.



sülhü deyil qarşıdurmaları, bəzi hallarda hətta separatizmi dəstəkləməsi kimi iddialar

### Müstəqillik "əldən getdi"...



Əvvəllər Aİ qlobal siyasi proseslərdə istiqamətverici qüvvə rolunda çıxış edirdisə, hazırda qurum daha çox proseslərin arxasınca sürünən, sadəcə reaksiya verən bir mexanizm təsiri bağışlayır. Bir çox siyasi analitiklər bu məsələdə Rusiya-Ukrayna müharibəsini əsas gətirirlər. Qeyd olunur ki, Bayden administrasiyası dövründə Avropa ABŞ-ın təşəbbüsü olmadan Rusiya ilə münasibətlərdə müstəqil mövqe ortaya qoya bilmədi. İqtisadi cəbhədə isə enerji daşıyıcıları ilə bağlı böhranlar Avropa ölkələrinin iqtisadi reputasiyasına ciddi zərbə vurdu. Bu gün Aİ daha çox yaranan problemlərin həllində iştirakçı deyil, həmin problemlərin təsirinə məruz qalan və daim reaktiv mövqe tutan quruma çevrilmiş kimi görünür.

### Maliyyə qeyri-bərabərliyi, lidersizlik...

Macarıstan Baş naziri Viktor Orbanın "2035-ci ildən sonra Aİ-də ümumi büdcənin qəbul edilməsi mümkünsüz olacaq" fikri də təsadüfi deyil. Hazırda qurumun büdcəsi əsasən Almaniya və Fransanın maliyyə dəstəyi hesabına formalaşır. Lakin iqtisadi böhranlar, enerji asılılığı, inflyasiya və sosial narazılıqlar bu yükü daşımağı çətinləşdirir. Şərqi Avropa ölkələri daha çox donor rolunda çıxış edir, cənub dövlətləri - İtaliya, Yunanıstan və İspaniya isə borc bataqlığında "üzür". Əgər bu tendensiya davam edərsə, 2035-ci ildən sonra ümumi büdcənin qəbul edilməsi, yəni bütün dövlətlərin ortaq maliyyə sənədində razılaşması, demək olar ki, qeyri-mümkün olacaq. Siyasi texnoloqlar Orbanın əslində Aİ daxilində mövcud maliyyə qeyri-bərabərliyinə işarə etdiyini, bunun uzunmüddətli perspektivdə qurumun dağılmasına gətirib çıxara biləcəyini vurğuladığını söyləyir.

Paralel olaraq Aİ daxilində lidersizlik problemi son illərdə daha da dərinləşib və önə çıxıb. Formal olaraq Almaniya və Fransa qurumda və kontingentdə liderlik iddiası ilə çıxış etsə də, bu iki dövlətin də maraq savaşında üz-üzə olması faktdır. Yəni bu ölkələr Aİ ilə bağlı məsələlərdə ortaq mövqedən

### NATO daxilində ABŞ ilə fikir ayrılığı və...

Avropa qitəsindəki parçalanmanın, fikir ayrılıqlarının bir səbəbi də NATO ilə bağlıdır. Bu gün NATO çərçivəsində çıxış edə bilmirlər. Bu isə bütövlükdə Aİ-nin gələcəyini sual altına qoyur. Digər dövlətlərin liderləri isə yalnız milli maraqları önə çəkərək ümumi razılığa gəlməyə mane olurlar. Orbanın dediyi kimi, "lider adlanan insanlar biri-birini parçalamağa hazırdırlar". Bu, təkcə siyasi mövzularda deyil, həm də təhlükəsizlik, enerji, miqrasiya və iqtisadi inteqrasiya məsələlərində özünü göstərir. Şərqi Avropanın səsi isə olduqca "zəif" eşidilir...

ABŞ ilə Avropa dövlətləri arasında dərin fikir ayrılıqları mövcuddur. ABŞ hazırda daha çox özünün qlobal maraqlarını müdafiə edir, Avropa ölkələri isə daxili sosial-iqtisadi problemlərə görə müharibə yükünü daşımaq istəmirlər. Bu fərq Ukrayna müharibəsində daha aydın sezilir: ABŞ daha sərt mövqe tutmağa çalışan zaman, hətta bir sıra Qərbi Avropa ölkələri kompromis axtarırdılar - indi isə ABŞ sülh axtarışındadır, Aİ isə proseslərin kənarında qalmaq istəmədiyi üçün müharibə riskini daha da artırır. Nəticədə NATO daxilindəki bu parçalanma Aİ-yə iqtisadi cəhətdən də sirayət edir, çünki hər iki struktur üzv dövlətlər baxımından üst-üstə düşür.

### Daxili ziddiyyətlərin qarşısı alınmasa...

Siyasi analitiklərin proqnozları isə ümidverici deyil - əgər Aİ yaxın illərdə daxili ziddiyyətlərini aradan qaldıra bilməsə, qurumun parçalanması qaçılmaz görünür. Bu, ilk növbədə Avropada yeni iqtisadi böhranların yaranmasına, milli valyutalara qayıdışa, sərhədlərin yenidən bərpa olunmasına gətirib çıxara bilər. Təhlükəsizlik sahəsində isə Aİ-nin zəifləməsi Avropanı daha çox ABŞ-ın və NATO-nun (qeyri-Avropa kontingenti ölkələr, xüsusilə Türkiyə) asılı vəziyyətinə salır. Digər tərəfdən, fərqli qeyri-Avropa güclərin qitədəki təsir imkanları açıq şəkildə genişlənməkdədir. Bu isə Avropanın son onilliklərdə formalaşdırmağa çalışdığı müstəqil siyasi xəttin tamamilə iflasa uğraması deməkdir...

***P.İSMAYILOV***

# Qəzzada atəşkəs elan olunacaq

## Trampdan HƏMAS-a son xəbərdarlıq...

ABŞ Prezidenti Donald Tramp yaxın zamanda Qəzzada müharibənin sona çatacağını bəyan edib. Belə ki, Ağ Evin rəhbəri jurnalistlərə açıqlamasında bildirib ki, ABŞ-ın vasitəçiliyi ilə tezliklə İsrail ilə HƏMAS arasında atəşkəslə bağlı razılaşma əldə olunacaq. Onun sözlərinə görə, Vaşinqton problemlərin həlli üzərində çalışır. "HƏMAS-la bağlı bəzi məsələlər ortaya çıxdı və biz çox yaxşı ola biləcəyini düşündüyümüz bir həll üzərində işləyirik. Bu barədə çox yaxında eşidəcəksiniz. Biz buna son qoymağa, girovları geri qaytarmağa çalışırıq",- deyə Tramp qeyd edib. Dövlət başçısı, həmçinin Qəzzada saxlanılan israilli girovların azad ediləcəyinə və meyitlərin qaytarılacağına əmin olduğunu bildirib. Bununla yanaşı, ABŞ Prezidenti "Truth" sosial şəbəkəsində HƏMAS -a xəbərdarlıq edib - o, bildirib ki, İsrail onun şərtlərini qəbul edib, HƏMAS-ın da qəbuletmə vaxtıdır. "Şərtləri qəbul etməməyin nəticələri ilə bağlı HƏMAS-a xəbərdarlıq etmişəm. Bu mənim son xəbərdarlığımdır, başqası olmayacaq". Qeyd edək ki, Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff HƏMAS-a yeni atəşkəs razılaşmasını təqdim edib. Bu razılaşmaya görə, Qəzzaya hücum planının dayandırılması qarşılığında atəşkəs elan ediləcək, ondan sonra həm İsrail, həm də HƏMAS qarşılıqlı şəkildə fələstinli və israilli girovları azad etməlidir. Atəşkəsdən sonrakı danışıqlarda isə HƏMAS-ın tamamilə tərksilah edilməsi və İsrail ordusunun Qəzzadan tam çıxarılması ilə bağlı məsələ ətrafında müzakirələr aparılacaq.

### HƏMAS danışıqlara hazırdır

HƏMAS Qəzza zolağında atəşkəs və orada saxlanılan bütün girovların azad olunması ilə bağlı danışıqlara dərhal qayıtmağa hazır olduğunu bəyan edib. HƏMAS-ın "Telegram" kanalında yayımlanan bəyanatında bildirilir ki, təşkilat öz şərtlərini müzakirəyə çıxarmaqda israrlıdır. "HƏMAS dərhal danışıqlar masasına oturmağa və bütün girovların azad olunması qarşılığında müharibənin dayandırılması, İsrail ordusunun Qəzzadan çıxması və orada dərhal fəaliyyətə başlayacaq müstəqil Fələstin hökumətinin formalaşdırılması məsələlərini müzakirə etməyə hazırdır", - deyə təşkilatın bəyanatında qeyd olunub. Hərəkatın rəhbərliyi, həmçinin Vaşinqtonun vasitəçilərlə Qəzzada atəşkəslə bağlı öz baxışını təqdim etdiyini təsdiqləyib və HƏMAS-ın "anklavda aqressiyanın dayandırılmasına yönəlmiş istənilən təşəbbüsü alqışladığını" vurğulayıb. Bundan başqa, təşkilat "İsrailin gələcək saziş çərçivəsində öz öhdəliklərinə əməl edəcəyinə dair zəmanətlərin" verilməsini tələb edib və "vasitəçilərlə daimi əlaqədə olduqlarını, Qəzzaya dair hərtərəfli sazişin hazırlanması üzərində onlarla birgə işlədiklərini" bildiriblər.

### HƏMAS danışıqlara qayıtmaqda qərarlıdır, yoxsa gözdən pərdə asır?

Ekspert vurğulayıb ki, HƏMAS-ın müəyyən şərtlərlə danışıqlara hazır olduğunu bəyan etməsinə baxmayaraq, danışıqlarda iştirak edib-etməyəcəyi sual altındadır. "HƏMAS ABŞ-ın vasitəsi ilə təkliflər aldığını və danışıqlar masasına dərhal qayıtmağa hazır olduğunu bildirib. Onlar bütün fələstinli girovların azad olunması, müharibənin bitirilməsi üçün qəti bəyanat və İsrailin Qəzzadan tam çəkilməsi tələbini təkrarlayıblar. Həmçinin müstəqil Fələstin komitəsinin idarəçiliyinə dair təşəbbüsləri müdafiə ediblər. HƏMAS bu dəfə də real seçim imkanlarına bağlı olaraq danışıqlara açıqdır. Lakin onun məqsədləri (girovların tam azad olunması, İsrailin çıxması və s.) İsrail üçün qəbuledilməz ola bilər və buradan "danışıqlara hazırlığ"ın yalnız taktiki addım olması dəyərləndirilə bilər," - deyə V.Zifəroğlu əlavə edib ki, İsrailin HƏMAS-ın bu şərtlərə razılıq verəcəyi inandırıcı görünmür: "Netanyahu hökuməti hələ ki yalnız bütün israilli girovların azad edilməsi, HƏMAS-ın silahsızlaşdırılması və Qəzzada İsrail üçün təhlükəsizlik zəmanətlərinin təmin edilməsi qarşılığında hərbi əməliyyatları dayandıracağını bəyan edir".

### Trampın budəfəki planı daha konkret və aktivdir

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Zifəroğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp budəfəki bəyanatında atəşkəs və girovların azad olunmasına yönəlik daha konkret və aktiv bir plan təqdim etmiş görünür. "7 sentyabr 2025-ci ildə Tramp jurnalistlərə "Qəzzada çox tezliklə razılaşma əldə ediləcəyini" bildirib, "İsrail mənim şərtlərimi qəbul edib, indi sıra HƏMAS-dadır" deyərək, bu, "son xəbərdarlıqdır" ifadəsi ilə gücləndirib. O, təklif edib ki, bütün girovlar (təxminən 48 nəfər) ilk atəşkəs günündə azad olunsun, əvəzində fələstinli məhbuslar həbsxanadan azad edilsin və atəşkəs müddətində danışıqlar başlasın. İsrail tərəfi bu təklifi "çox ciddi şəkildə nəzərdən keçirdiyini" bildirib, lakin hələ rəsmi təsdiq verilməyib. Göründüyü kimi, Tramp bu dəfə atəşkəs prosesinə faktiki təkliflə və diplomatik vasitələrlə daxil olur - bu, əvvəlki bəyanatlardan daha konkret və ciddidir".



### Qəzzada atəşkəs hansı halda təmin oluna bilər?

"Tramp irəli sürdüyü modelin hazırda real variant olduğunu bildirir. İsrail dəyərləndirir, amma rəsmi razılıq hələ verilməyib. HƏMAS-dan gələn açıqlamalar konstruktivdir, amma keçmişdə əldə edilmiş razılaşmalara əməl edilməməsi təcrübəsi narahatlıq doğurur. Münaqişənin real olaraq dayandırılması üçün tərəflərin həm ideyalarını, həm də tələblərini birləşdirəcək ortaq məxrəcə ehtiyac var - bu isə indiyədək mümkün olmayıb," - deyə V.Zifəroğlu bildirib.

***Yunis ABDULLAYEV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:
"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744
6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Fiziki və mənəvi inkişaf harmoniyası!

## Uşaqlarda bədənin və ruhun uğurlu inteqrasiyasının sirri...

Uşaqlıq dövrü həyatın ən həssas, eyni zamanda qayğısız mərhələsidir. Bu dövrdə fiziki və mənəvi inkişaf bir-birini tamamlayan və qarşılıqlı təsir göstərən proseslər sayılır. Uşaqların həm bədən, həm də ruhən sağlam inkişaf etməsi, onların gələcəyini, həyat keyfiyyətini və cəmiyyətə töhfələrini müəyyən edir.

Mənəvi inkişaf sadəcə bir insanın dünyagörüşünü deyil, onun daxili aləmini, əxlaqını, dəyərlərini və başqalarına qarşı münasibətini formalaşdırır. Bu proses uşağın özünü necə dərk etməsindən, ətrafındakı dünyaya necə yanaşmasından, başqalarına qarşı necə bir davranış sərgiləməsindən başlayır və həyat boyu davam edir. Mənəvi inkişafın uşaqlar üçün əhəmiyyəti, onların gələcəkdə sağlam və məsuliyyətli fərdlər olmaları ilə birbaşa əlaqəlidir.

Mövzuya dair "Yeni Azərbaycan"a açıqlama verən uşaq psixologiyası və inkişafı üzrə mütəxəssis, nevroloq Leyla Əliyeva bildirib ki, uşaqların fiziki və mənəvi inkişafının sintezi onların yalnız sağlam böyüməsi üçün deyil, həm də gələcəkdəki sosial və emosional rifahını təmin etmək üçün çox əhəmiyyətlidir. Onun sözlərinə görə, fiziki inkişaf və mənəvi inkişaf bir-birindən ayrı deyil, onlar bir-birini tamamlayır və uşağın sağlam şəxsiyyət kimi yetişməsində eyni dərəcədə vacibdirlər: "Uşaqların bədən sağlamlığını qorumaq onların özünə inamını gücləndirir və bu, mənəvi inkişaflara müsbət təsir edir. Beləliklə, fiziki sağlamlıq uşağın ruhunu da inkişaf etdirir. Bir uşaq yaxşı qidalanarsa, kifayət qədər yuxu alarsa və fiziki fəaliyyətlə məşğul olarsa, bu yalnız onun bədənini gücləndirmir, həm də onun emosional vəziyyətini, davranışlarını və ümumiyyətlə, dünyaya baxışını müsbət yöndə dəyişir. Yaxşı fiziki vəziyyətdə olan bir uşaq, özünə daha çox güvənir, mənəvi böhranlardan daha asan keçir və çətinliklərlə mübarizə aparmaq üçün daha çox enerji və davamlılıq sərf edir".

Nevroloq uşaqların mənəvi inkişafı məsələsinə də toxunub: "Mənəvi inkişaf uşaqların emosional və sosial keyfiyyətlərinin, məsələn, dostluq, sevgi və qarşılıqlı hörmət kimi dəyərlərin inkişafıdır. Mənəvi baxımdan sağlam bir uşaq bədəninə yaxşı qulluq etməyi, başqalarını qorumağı, hörmət etməyi və ədalətli olmağı öyrənir. Bir məqamı xüsusilə vurğulamaq lazımdır. Uşaqların və gənclərin hərtərəfli inkişafı yalnız ailə və məktəb mühiti ilə məhdudlaşmamalıdır, cəmiyyətin də bu prosesdəki rolunu önə çəkmək lazımdır. Çünki uşaqlar, yaşadıqları mühitdən çox şey öyrənirlər. Cəmiyyət uşaqlara sağlam həyat tərzini necə qəbul etməyi, necə hörmət etməyi və özlərini necə inkişaf etdirməyi öyrətməlidir. İdman imkanları, təhsil proqramları, sosial fəaliyyətlər və sağlam qidalanma təşviqləri uşaqların həm fiziki, həm də mənəvi inkişafını dəstəkləyir.

Məsələn, bir şəhərdə sağlam yaşam mədəniyyətini təşviq edən idman salonları, parklar və icma mərkəzləri varsa, uşaqlar bu mühitlərdən istifadə edərək həm fiziki, həm də mənəvi inkişaflarını inkişaf etdirə bilərlər. Cəmiyyətin uşaqlara verdiyi müsbət stimul, onların şəxsiyyətlərini daha da inkişaf etdirir və onlara gələcəkdə cəmiyyətə faydalı fərdlər olma imkanı yaradır".

Göründüyü kimi, uşaqların, həmçinin gənclərin mənəvi inkişafı yalnız onlar üçün deyil, cəmiyyətin gələcəyi üçün də böyük əhəmiyyət kəsb edir. Mənəvi dəyərlərin və əxlaqın öyrədilməsi, uşaqların sağlam, məsuliyyətli, vicdanlı fərdlər olmalarını təmin edir. Bu proses onlara həyatın çətinlikləri ilə başa çıxmağı, başqalarını anlamağı və özlərini düzgün idarə etməyi öyrədir. Gənc nəslə bu dəyərləri aşılamaq yalnız xoşbəxt bir həyat təqdim etmək deyil, həm də güclü, sabit və ədalətli bir cəmiyyət yaratmaq deməkdir.

Bir sözlə, uşaqların mənəvi inkişafını dəstəkləyərək, onlara gələcəkdə cəmiyyətə faydalı olan, məsuliyyətli, vicdanlı və liderlik keyfiyyətlərinə malik insanlara çevrilmək imkanı veririk. Bu, sadəcə, onların həyatı üçün deyil, həm də bütün insanlıq üçün böyük bir hədiyyədir.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

***Səlim***

# Səssiz fəryad...

Səssizliyin də səsi olur. Bəzən insan heç nə demədən, heç kimə bir söz söyləmədən sadəcə yox olur, sanki həyatın gurultusunda görünməyən bir sətrə çevrilir. Bu sətrin adı intihardır. İnsan həyatına öz əli ilə son qoyursa, bu, cəmiyyətin haradasa büdrədiyinin göstəricisidir.

Hər il 9 sentyabr dünyada İntiharla Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Bu gün təkcə statistika ilə yox, həyatla, itirilmiş gəncliklə, susmuş sözlərlə, vaxtsız bitmiş ömürlərlə bağlıdır. Bu günün məqsədi sadəcə problemdən danışmaq deyil, onu görmək, anlamaq və bir insanın yaşamaq ümidi itməmiş əlini tutmaqdır.

Beynəlxalq Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər 40 saniyədə bir insan intihar nəticəsində həyatını itirir. Bu, təkcə bir insanın yoxluğu deyil, bu, ailənin dağılması, dostların travması, cəmiyyətin yaralanmasıdır.

İntihar təkcə psixoloji xəstəliklərin nəticəsi deyil. Bəzən bu, iqtisadi çətinliklərin, sosial təcridin, zorakılığın, kibertəcavüzün və ya laqeydliyin nəticəsidir. Bəzən sadəcə bir cümlə, bir qucaq, bir diqqət onu xilas edə bilər.

## Ən çox intihar hadisələri bu ölkələrdədir...

Yüksək intihar göstəriciləri olan ölkələrdə adətən bir neçə ortaq problem mövcuddur: yoxsulluq, sosial təcrid, işsizlik, spirtli içki istifadəsi, psixoloji dəstəyin azlığı və cəmiyyətdə mental sağlamlıqla bağlı stiqmanın mövcudluğu. İntihar yalnız şəxsi bir qərar deyil; bu, sistematik sosial və iqtisadi problemlərin bir əksidir.

Həmçinin qeyd etmək lazımdır ki, bəzi inkişaf etmiş ölkələrdə də intihar nisbətləri yüksəkdir. Məsələn, Yaponiyada və Finlandiyada intihar nisbətləri hələ də yüksəkdir, amma bu ölkələrdə psixoloji dəstək xidmətləri və cəmiyyətin bu məsələyə diqqəti artırıldığı üçün vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlər görülür.

Litva da intihar halları çox olan ölkələr sırasında yer alır. Bundan sonra Rusiya, Cənubi Koreya gəlir.




## Nə etmək olar?

Əvvəlcə dinləməyi öyrənməliyik. İnsanlar danışmaq istədikdə, onları susdurmamalı, "hamının problemi var", "keçəcək" kimi səthi cavablarla yola verməməliyik.

Maarifləndirmə, psixoloji dəstək xidmətlərinin əlçatan olması, təhsil müəssisələrində və iş yerlərində psixoloji sağlamlıq barədə açıq söhbətlər bu mübarizənin əsas alətləridir. Eyni zamanda, medianın intihar hadisələrini işıqlandırarkən məsuliyyətli davranması, sensasiya yaratmaqdan çox, maarifləndirici funksiyasını yerinə yetirməsi vacibdir.

Bu gün həm də sağ qalanlar haqqında düşünməliyik - intihar cəhdindən sonra yaşayanlar və ya sevdiklərini itirənlər. Onların acısı bitmir, amma bir az anlayış göstərməklə onlara bu yükün altında tək olmadıqlarını hiss etdirmək olar.

Unutmayaq, intiharla mübarizə insanla həmrəylik deməkdir. Kiminsə həyatına toxunmaq, onu dinləmək, ona dəyərli olduğunu hiss etdirmək bu mübarizənin başlanğıcıdır. Bəlkə də bir mesaj yazmaqla, bir zəng etməklə, sadəcə "özünü necə hiss edirsən?" sualını verməklə kiminsə həyatını dəyişdirə bilərik. Çünki yaşamaq üçün səbəb axtaran insanın tək ehtiyacı onu dinləyəcək bir nəfərdir.

# Təcili müdaxilənin gücü!

## Hər kəsin bilməli olduğu ilk tibbi yardım bacarıqları...




Hər birimizin birbaşa təcrübəsi olmasa da, həyatımızın müəyyən anında qarşılaşacağımız ilk tibbi yardım müdaxiləsi bəzən ölüm və həyat arasındakı sərhədi müəyyən edir. Hər gün yüzlərlə insan qəza, xəstəlik, ya da təbii fəlakət nəticəsində ölümlə üzləşə bilir. Belə anlarda vaxtında edilən düzgün müdaxilələr, çox kiçik və sadə addımlar faciəni əngəlləyib həyatları xilas etməyə qadirdir. Çünki bir saniyəlik müdaxilə bir həyat qurtara bilər. Bir sözlə, ilk tibbi yardım insanların taleyini dəyişdirən gücə malikdir və bu bacarığı bilmək hər birimizin ən vacib məsuliyyətidir.

Bunu unutduğumuz zamanlarda, hər il 10 sentyabrda qeyd olunan Ümumdünya İlk Tibbi Yardım Günü bizə bu əhəmiyyətli sahənin vacibliyini bir daha xatırladır. Bu gün sadəcə tibbi yardım mövzusunu gündəmə gətirməkdən daha çox, insanların ilk tibbi yardımla bağlı məlumatlanmasını və bu sahədəki bacarıqları artırmağı məqsəd qoyur.

**Bir saniyəlik müdaxilə bir həyat qurtara bilər...**

İlk tibbi yardımın düzgün şəkildə göstərilməsi üçün əsas prinsiplərə əməl etmək çox vacibdir. Bu prinsiplər, sadə, amma həyati əhəmiyyət daşıyan yanaşmalardır. Onlardan bir neçəsinə diqqət yetirək:

**Sakit olmaq və panikadan qaçınmaq**

Hər hansı bir fövqəladə vəziyyətdə ilk reaksiya təşviş ola bilər. Lakin o insanın düşüncə tərzini bulanıq edir və düzgün müdaxilə imkanını əngəlləyir. İlk tibbi yardımı göstərən şəxs soyuqqanlı olmalı və vəziyyəti obyektiv şəkildə dəyərləndirməlidir.

**Yardım çağırmaq**

İlk tibbi yardım göstərmək çox önəmli olsa da, həkim və təcili yardım xidmətlərini çağırmaq da unudulmamalıdır. Tez bir zamanda təcili tibbi yardıma müraciət edilməsi, mütəxəssis müdaxiləsinin vaxtında gəlməsini təmin etmək lazımdır.

**Əsas həyati funksiyaları yoxlamaq**

Qəza və ya yaralanma vəziyyətində ilk növbədə şəxsin nəfəs alıb-almadığını, ürəyinin döyünüb-döyünmədiyini yoxlamaq lazımdır.

**Qanama hallarında düzgün müdaxilə**

Həmçinin, qanamanın qarşısını almaq da vacibdir. Bunu düzgün və sürətli şəkildə tətbiq etməklə, yaraya təmiz bir bandaj qoymaqla həyata keçirmək mümkündür.

**Resusitasiya (ürək dayanması halında)**

Ürək dayanması vəziyyətində reanimasiyanın tətbiqi həyati əhəmiyyət daşıyır. Süni tənəffüs və ürək masajı kimi üsullar bir çox hallarda tibb mütəxəssisləri gəlib müdaxilə edənə qədər həyatı davam etdirməkdə köməkçi olur.

**Psixoloji yardım...**

İlk tibbi yardım yalnız fiziki müdaxilədən ibarət deyil. Fövqəladə hallarda yaralı şəxslər təkcə fiziki deyil, eyni zamanda psixoloji dəstəyə də ehtiyac duyurlar. Sakitləşdirmək, qorxularını aradan qaldırmaq və onları rahatlaşdırmaq da vacibdir. Bu, həmçinin ilk tibbi yardım göstərənin işini asanlaşdırır, çünki psixoloji gərginlik, bəzən daha da ağırlaşmaların səbəbi ola bilər.

Göründüyü kimi, ilk tibbi yardım mövzusunda maarifləndirmə çox vacibdir. Hər kəsin bu biliklərə sahib olması, bəzən həyati əhəmiyyət daşıyan bir müdaxiləni vaxtında etmək üçün çox böyük bir şansdır. Bir çox ölkələrdə, xüsusilə məktəblərdə, təcili tibbi yardım təlimləri təşkil edilir. Bu təlimlər yalnız sağlamlıq sahəsində çalışanlar üçün deyil, hər bir vətəndaş üçün vacibdir. Hətta ən sadə bir yardım bilikləri, bir həyatı xilas etmək üçün kifayət edə bilər.

***Yeganə BAYRAMOVA***

# "Nar" ilin ən uğurlu abituriyentlərini mükafatlandırdı

Ölkənin sərfəli mobil operatoru mövqeyini qoruyan "Nar" uzunmüddətli sosial layihələrə dəstəyini davam etdirir. Belə ki, mobil operator 2024-2025-ci tədris ilində ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən 10 abituriyenti xüsusi hədiyyələrlə təltif edib. Modern.az İnformasiya Agentliyinin dəstəyi ilə keçirilən bu layihə çərçivəsində tələbə adını qazananlara operatordan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib.

Mükafatlandırma mərasimində tanınmış dövlət, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak edərək ilin ən uğurlu abituriyentlərini təbrik ediblər. Tədbirdə "Ümid var" İnklüziv Yaradıcılıq Birliyi və "Azərbaycan Uşaqları" İctimai Birliyinin üzvləri musiqi və rəqs ifaları ilə çıxış ediblər. Bu performans, eləcə də "Nar"ın sosial layihələrində inklüzivliyə verdiyi xüsusi önəm tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.




"Nar"ın baş icraçı direktoru Qunnar Panke çıxış edərək gəncləri təbrik edib, onlara gələcəkdə uğurlar arzulayıb: "Bu nailiyyətiniz yalnız universitet qapılarını deyil, yeni imkanları və düşüncə üfüqlərinizi də açır. "Nar" olaraq, biz inanırıq ki, təhsilə dəstək ölkənin gələcəyinə edilən ən dəyərli investisiyadır".

"Nar"ın 10 ilə yaxındır, ənənəvi olaraq, davam etdirdiyi bu təşəbbüs mobil operatorun təhsilə verdiyi önəmini bir daha sübut edir. "Nar"ın dəstəyi ilə təhsilin inkişafına yönəlmiş sosial layihələr haqqında daha ətraflı məlumatı buradan  əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5006
Sifariş: 1867
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova